Xalqın qəzeti!
# Xalq qəzeti
№ 161 (30565) 1 avqust 2024-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## "COP29 QHT Koalisiyası"nın sıraları genişlənir



Səhifə ⇨ 8

# Dünya Bankı Azərbaycana dəstəyini davam etdirir


Səhifə ⇨ 7

## Növbədənkənar seçkilərlə əlaqədar "dəyirmi masa"


Səhifə ⇨ 5

# İrəvan "va-bank" gedir?

*Paşinyan hökuməti sülh yolunda duran real maneələri aradan qaldırmaq istəmir*



**Bunu birinci dəfə deyil ki, müşahidə edirik. Ermənistan xarici işlər naziri Ararat Mirzoyan yenə gülünc bəyanatla çıxış edib. Hayların baş diplomatının sözlərinə görə, "sərhəd insidentləri və silahlara nəzarət mexanizmlərinin yaradılması təklifinə Bakı hələ də cavab verməyib". Ermənistan yenə də Azərbaycanı nədəsə, nəyə görəsə qınamaq taktikasını seçib.**

Ararat Mirzoyan Kipr Respublikasına rəsmi səfəri zamanı kiprli həmkarı Konstantinos Kombos ilə birgə mətbuat konfransında Ermənistanla Azərbaycan arasında sülh prosesi ilə bağlı qəribə açıqlamalar verib. Ondan başlayaq ki, Mirzoyan yenə Azərbaycanın Qarabağ bölgəsindən Ermənistana könüllü köçmüş ermənilərlə bağlı ağ yalanları üfürüb. "Biz Kiprin Dağlıq Qarabağdan zorla köçürülmüş ermənilərə göstərdiyi yardımı yüksək qiymətləndiririk",– deyən Mirzoyan ardınca Ermənistanı sülh danışıqları prosesində konstruktiv tərəf kimi qələmə verməyə çalışıb.

*(ardı 3-cü səhifədə)*

# Milli varlığımızın əsas nişanı

**Bu gün ölkəmizdə Ana Dili Günüdür. Kiməsə adi, kiməsə qəribə və kiməsə zəruri görünən bir gün. Həyatımızın adi günlərindən birini yaşasaq da, heç bir məhdudiyyət olmadan ana dilimizdə danışdığımızın və düşündüyümüzün fərqinə varanda bunun o qədər də adi olmadığını anlamaq olar.**




Arazın o tayında milyonlarla doğma qardaşımızın bu dildə danışmaq və düşünmək imkanının o qədər də çox olmadığını xatırlayanda ana dilinin nə qədər doğma və müqəddəs olduğunu, nə qədər böyük dəyər kəsb etdiyini hiss etmək heç də çətin deyil. Tarix boyu torpaqlarımızın itirilməsi, təbii sərvətlərimizin talan olunması, tarixi-mənəvi dəyərlərimizin aşındırılması və unutdurulması ilə bərabər, doğma dilimiz də zaman-zaman diskriminasiyaya məruz qalıb. Çox da uzaq olmayan tariximizdə 200 ilə yaxın bir müddətdə torpaqlarımızda aparılmış aqressiv ruslaşdırma siyasətinin acı xatirələri hələ də unudulmayıb və unudulmamalıdır. Təkcə XX əsrin 1-ci yarısında əlifbamızın iki dəfə dəyişdirilməsi məqsədli şəkildə milli, mədəni, intelektual inkişafın qarşısına çəkilən sədlər deyildimi?! Və ya 1926-cı ilin 26 fevral–6 mart tarixlərində Bakıda keçirilmiş I Türkoloji qurultayın, demək olar ki, bütün iştirakçılarının az sonra repressiyaya məruz qalması ana dilimizə qarşı törədilmiş ən böyük terror deyildimi?!

Bu dilin qorunub saxlanması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi uğrunda zaman-zaman milli ruhlu vətənpərvər və maarifpərvər babalarımızın müxtəlif rejimlərin repressiya dalğalarında şəhid olduğunu xatırlayanda Ana Dili Gününün ayrıca qeyd olunmasının zəruri olduğuna heç bir şübhə qalmır. Ana dilimizi sevmək, qorumaq, inkişaf etdirmək o qəhrəman babalarımızın ruhuna hörmətimizin və əməllərinə sədaqətimizin rəmzidir.

*(ardı 3-cü səhifədə)*

# Ermənistan üçün alternativ yol qalmayıb


Səhifə ⇨ 4

## 2025-ci ildə ölkəmizdə iqtisadi artım 2-2,5 faiz təşkil edəcək


Səhifə ⇨ 7

## Dünya rekordçusu Olimpiya kəndində yaşamaqdan imtina edib


Səhifə ⇨ 12

## Nüvə dövlətləri tərksilah olunmaq istəmir


Səhifə ⇨ 11

## Azərbaycan Respublikası Prezidentinin "Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi Qaydaları"nın və "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nın təsdiq edilməsi haqqında" 2010-cu il 24 may tarixli 274 nömrəli və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 aprel tarixli 502 nömrəli və "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli fərmanlarının ləğv edilməsi barədə" 2022-ci il 5 mart tarixli 1626 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 403 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 may tarixli 69 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nın 1-ci hissəsinin yeddinci və səkkizinci abzasları müvafiq olaraq onuncu və on birinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda yeddinci – doqquzuncu abzaslar əlavə edilsin:

"Bakı Hərbi Kolleci;

Gəncə Hərbi Kolleci;

Naxçıvan Hərbi Kolleci;".

**2** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 aprel tarixli 502 nömrəli və "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli fərmanlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 mart tarixli 1626 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 214 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş "Milli Müdafiə Universitetinin Nizamnaməsi" üzrə:

2.1.1. 4.2-ci bəndə "Mərkəzi," sözündən sonra "Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci, Naxçıvan Hərbi Kolleci," sözləri, "tədris şöbəsi," sözlərindən sonra "fakültələr, kurslar," sözləri əlavə edilsin;

2.1.2. 4.4-cü bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Universitet rektorunun müavinləri, habelə Universitetin tabeliyindəki Hərbi Elmi Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun, Heydər Əliyev adına Hərbi İnstitutun rektorları və Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin rəisi Azərbaycan Respublikası müdafiə nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən, Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin, Naxçıvan Hərbi Kollecinin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Hərbi Liseyin rəisləri isə Universitet rektorunun təqdimatına əsasən Azərbaycan Respublikasının müdafiə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.";

2.2. həmin Fərmanla təsdiq edilmiş "Heydər Əliyev adına Hərbi İnstitutun Nizamnaməsi" üzrə:

2.2.1. 1.1-ci bənddən və 3.1.4-cü yarımbənddən "orta ixtisas təhsili," sözləri çıxarılsın;

2.2.2. 1.3-cü bənddən "orta ixtisas təhsilli mütəxəssislər və" sözləri çıxarılsın;

2.2.3. 5.2.2-ci yarımbənd, 6.2-ci və 7.28-ci bəndlər ləğv edilsin;

2.2.4. 6.3-cü bənddən "orta ixtisas təhsili pilləsinə və" sözləri çıxarılsın;

2.2.5. 7.3-cü bəndin ikinci cümləsində "Universitet" sözü "İnstitut" sözü ilə əvəz edilsin;

2.2.6. 7.18-ci bənddən "orta ixtisas," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 31 iyul 2024-cü il**

## "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 noyabr tarixli 2348 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 noyabr tarixli 2348 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 903 (Cild I); 2024, № 5 (I Kitab), maddə 526) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.5-1-ci bənddə ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti (həmin Xidmətə və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə münasibətdə) və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti (həmin Xidmətə və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə münasibətdə)" sözləri ilə əvəz edilsin;

1.2. 3.6-cı bənddən "Əsasnamələrində göstərilən" sözləri çıxarılsın və həmin bənddə "öz səlahiyyətləri daxilində Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

1.3. 3.7-ci bənddən "əsasnaməsində göstərilən mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin öz strukturlarında Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi," sözləri çıxarılsın.

**2** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I); 2024, № 2, maddə 145, № 3, maddə 262) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın V hissəsinin 32-ci və 34–36-cı bəndlərinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütunundan "SOMDA," akronimi çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 31 iyul 2024-cü il**

## "Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 704 (Cild I); 2024, № 3, maddə 262) 2-ci hissəsinə "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 31 iyul 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1521 (Cild I); 2024, № 1, maddə 29, № 2, maddə 146; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 dekabr tarixli 431 nömrəli, 2024-cü il 10 iyun tarixli 92 nömrəli və 10 iyul tarixli 136 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu"nda dəyişiklik təsdiq edilsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 31 iyul 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 323 (Cild I) ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın 8.1.4-cü yarımbəndinin "Tədbirin adı" sütununda "Lənkəran-Astara" sözləri "Şərqi Zəngəzur" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 31 iyul 2024-cü il**

## Əli Əsədov Məsud Pezeşkian ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tehrana işgüzar səfəri çərçivəsində iyulun 31-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Əli Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və prezident səlahiyyətlərinin icrasına başlaması münasibətilə təbriklərini Məsud Pezeşkiana çatdırıb.

Baş nazir cari ilin noyabrında Azərbaycanda keçiriləcək COP29-da iştirakla bağlı Prezident İlham Əliyevin dəvət məktubunu Prezident Məsud Pezeşkiana təqdim edib.

Görüş əsnasında Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran əməkdaşlığın bütün istiqamətlər üzrə gələcək perspektivləri müzakirə edilib.

## Əli Əsədov Azərbaycanın İrandakı səfirliyində olub

**İyulun 31-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti fəaliyyətini Tehran şəhərində yeni ünvanda bərpa edən ölkəmizin İran İslam Respublikasındakı səfirliyini ziyarət edib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazir səfirliyin binası ilə tanış olub, Azərbaycanın İrandakı səfiri və səfirliyin heyəti ilə söhbət edib.

***XQ***

## Ceyhun Bayramov görüşlər keçirib



**İyulun 31-də xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati ilə görüşüb.**

Görüşdə cari il sentyabrın 1-də Milli Məclisə növbədənkənar seçkilərə hazırlıq məsələləri və bu istiqamətdə beynəlxalq öhdəliklər müzakirə olunub.

Nazir bu ilin əvvəlində keçirilmiş prezident seçkiləri kimi qarşıdan gələn seçkilərin də azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl, sistemli və intensiv şəkildə atılan addımlar, eləcə də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı ilə bağlı tədbirlər barədə qarşı tərəfə ətraflı məlumat verib.

Prezident seçkilərindən sonra parlament seçkilərinin də ilk dəfə Azərbaycanın işğaldan azad olunmuş ərazilərini əhatə etməsinin tarixi məqam olduğu vurğulanıb. Seçkilərin qanunvericiliyin tələbləri əsasında, beynəlxalq standartlara tam cavab verən, yüksək səviyyədə təşkili üçün müvafiq şəraitin yaradıldığı qeyd olunub. Bununla yanaşı, seçki müşahidə missiyalarının müvafiq qaydalara və mandatlarına uyğun olaraq seçkilərin müşahidəsi prosesində obyektiv və qərəzsiz yanaşma tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Missiyanın rəhbəri avqustun 1-də müşahidə missiyasının fəaliyyətə başlaması ilə bağlı mətbuat konfransının keçiriləcəyini qeyd edərək növbəti 6 həftə ərzində missiya tərəfindən görüləcək işlərin xülasəsi barədə məlumat verib.

*

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi Bik Lumu ilə görüşüb.

Ceyhun Bayramov keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin humanitar nəticələrinin aradan qaldırılması, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması istiqamətində BMT QAK ilə həyata keçirilən birgə layihələrin əhəmiyyətini qeyd edib.

BMT nümayəndəsi təmsil etdiyi qurum tərəfindən azərbaycanlı məcburi köçkünlər üçün son 30 il ərzində çoxsaylı layihələr həyata keçirildiyini, onların öz yurdlarına qayıdışının təmin olunması, eləcə də ANAMA ilə birgə humanitar minatəmizləmə sahəsində maarifləndirmə işi ilə bağlı dəstək göstərilməsinə hazır olduqlarını qeyd edib.

***XQ***

# Milli varlığımızın əsas nişanı




*Cavanşir FEYZİYEV,*
*Milli Məclisin deputatı,*
*fəlsəfə doktoru*



**(əvvəli 1-ci səhifədə)**

Ana dilimiz xalqımızın milli və tarixi varlığını müəyyən və təsdiq edən mənəvi sərvətdir. Yaşadığı coğrafiyadan asılı olmayaraq 50 milyondan çox soydaşımızın ünsiyyət vasitəsi olan ana dilimiz tarixin müxtəlif dönəmlərində ən ağır təzyiqlərə məruz qalsa da, öz varlığını qoruyub saxlamaqla bərabər, həm də böyük inkişaf yolu keçib.

İstənilən dilin varlığını, yaşamasını təmin edən ən böyük amil, əlbəttə, o dilin daşıyıcısı olan xalqdır. Yer üzündə mövcud olan hər bir xalq ilk növbədə özünə məxsus milli dili ilə digər toplumlardan fərqlənir və öz identikliyini tapır. Hər bir millət və xalq öz dilində danışdıqları və yaratdıqları ilə digərləri tərəfindən tanınır və dəyərləndirilir. Dilin dövlət dili statusuna yüksəlməsi isə milli müstəqillik ideyalarının gerçəkliyə qovuşması ilə baş verə bilən siyasi hadisədir. Şah İsmayıl Xətaidən bu günə qədər ana dilimizin keşməkeşli tarixi onu göstərir ki, hər bir cəmiyyətdə dilin inkişafı milli müstəqillik ideyalarına sadiq liderlərin siyasi iradəsi və qətiyyəti ilə sıx bağlıdır.

Səfəvilər hakimiyyətindən sonra yalnız Cümhuriyyət dövründə Azərbaycan dili rəsmi dövlət dili elan edilsə də, real tarixi şərait bu qərarın uzunömürlü olmasına imkan verməmişdi. Sovet dövründə isə yalnız 1956-cı ildə Ali Sovetin qərarı ilə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasına Azərbaycan dili haqqında maddə əlavə edilmişdi. Lakin bu da mərkəzi hakimiyyət tərəfindən qəzəblə qarşılanmış və buna görə də həmin dövrdə Azərbaycana rəhbərlik etmiş İmam Mustafayev dərhal öz vəzifəsindən uzaqlaşdırılmışdı.

1969-cu ildən başlayaraq Azərbaycana rəhbərlik edən Heydər Əliyev ana dilinin mövcud təhlükələrdən qorunması, inkişaf etdirilməsi və gələcək nəsillər üçün mühafizə edilməsi istiqamətində müstəsna xidmətlər göstərdi. 1978-ci il aprelin 2-də keçirilən IX çağırış Ali Sovetin 7-ci sessiyası Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuşdu. Ulu öndərin həmin sessiyadakı tarixi çıxışı Konstitusiyanın 73-cü maddəsinə dəyişiklik edilməsi və Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması ilə nəticələndi. Sovet rejiminin siyasi, iqtisadi və hərbi baxımdan ən güclü olduğu bir zamanda belə bir təşəbbüslə çıxış etmək və öz məqsədinə nail olmaq, əlbəttə, böyük cəsarət və iradə tələb edirdi. O zamanlarda belə təşəbbüslərin bəzən insanın həyatı bahasına başa gələcəyini yaxşı bildiyinə baxmayaraq, Ulu öndər heç bir tərəddüd etmədən bu tarixi addımı atdı. Heydər Əliyevin bu tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan dilimizin sonrakı inkişafına çox böyük təkan verdi.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci ilin dekabrında Azərbaycanda latın qrafikalı əlifbaya keçid barədə qəbul edilmiş qərarın icrası illərlə uzanırdı. Nəhayət, Prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanına əsasən, keçid prosesi başa çatdırıldı və 2001-ci ilin 1 avqustunda ölkə ərazisində bütün idarə, müəssisə və təşkilatlar, Azərbaycan dilində olan nəşrlər latın qrafikalı əlifbaya keçdi.

2001-ci ilin 9 avqustunda Prezident Heydər Əliyevin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" imzaladığı fərmanda Azərbaycan xalqının tarix boyu müxtəlif əlifbalardan istifadə etdiyi diqqətə çatdırılır və ilk dəfə XX əsrin 20-ci illərində gerçəkləşən latın qrafikalı əlifbaya keçidin əhəmiyyəti vurğulanırdı. Qeyd olunurdu ki, Azərbaycan ərazisində İslamın yayıldığı dövrlərdən başlayaraq, xalqımız min ildən artıq bir zaman ərzində ərəb əlifbasından istifadə etmiş, ölkəmizin böyük ədibləri, mütəfəkkirləri bu əlifbada yazdıqları əsərlərlə bəşər sivilizasiyasını zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi XIX əsrin 2-ci yarısından etibarən Mirzə Fətəli Axundzadə başda olmaqla, dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı üzərində düşünməyə vadar etmişdi. Öz qaynağını Avropadan alan yeni dövrün milli maarifçilik hərəkatı Azərbaycan mədəniyyətinin inkişaf istiqamətini müəyyənləşdirmiş və bu da müasir mədəniyyət tipinə uyğun yeni əlifbaya olan ehtiyacı gündəmə gətirmişdi. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslər o zaman üçün mövcud əlifbanın daha münasibi ilə əvəz olunması zərurətini yaratmışdı.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında Əlifba Komitəsinin yaradılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən latın əlifbasına keçid prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş I Türkoloji Qurultayın tövsiyələrinə uyğun olaraq, 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Qısa bir müddət ərzində latın qrafikasının tətbiq edilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril əlifbası ilə əvəz olundu. Bundan sonra yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası əsasında Azərbaycan elminin və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Bununla belə, kiril əlifbasının dilimizin səs quruluşuna uyğunlaşdırılması üçün edilən bütün cəhdlər uğursuz oldu və kiril əlifbası əsasında Azərbaycan dilinin tam optimal ifadə variantının əldə edilməsi mümkün olmadı. Bu vəziyyət elə o zaman kiril əlifbasının nə vaxtsa dəyişdiriləcəyi ehtimalını yaradırdı.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra yaranmış yeni tarixi-siyasi şərait bizim də dünya xalqlarının ümumi yazı sisteminə qoşulmağımız üçün perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanunun qəbul olunması ilə nəticələndi. Beləliklə, 10 ilə yaxın davam edən latın qrafikalı Azərbaycan əlifbasına keçid 2001-ci ilin 1 avqustunda başa çatdı. Bu, Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə idi. Məhz elə 1 avqust tarixi ölkəmizdə "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" olaraq təsbit edildi.

Azərbaycan dilinin qloballaşma dövrünün mənfi təsirlərindən qorunması və inkişaf etdirilməsi istiqamətində Ulu Öndərin xidmətləri misilsiz olub. Ümummilli liderin 2001-ci il iyulun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", eləcə də həmin il avqustun 9-da imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanlar ana dilimizin qorunmasında və inkişafında mühüm rol oynayıb. 2003-cü il yanvarın 2-də isə Ulu öndər Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qüvvəyə minib. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr müəyyən edilib. Tariximizin ən çətin dönəmlərində ölkəmizə rəhbərlik etmiş Heydər Əliyevin ana dilimizlə bağlı apardığı siyasət daha sonra Prezident İlham Əliyev tərəfindən inamla davam etdirildi. Dövlət başçısı 2004-cü il yanvarın 12-də "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncam imzalamışdı və bu sərəncama əsasən hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanırdı. Bundan başqa, elə həmin il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", 2007-ci il dekabrın 30-da isə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlar imzalanıb. Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidenti 2013-cü il 9 aprel tarixli sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı təsdiq edib.

Dövlət Proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, qloballaşma şəraitində dilimizin zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır. Sənəd, eyni zamanda, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin 2018-ci il 17 iyul tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiq dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir.

Dil quruculuğu ilə bağlı olan bütün bu sənədlər Azərbaycan dilinin milli-mənəvi və siyasi-hüquqi statusunun möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımlardır. Bu addımlar dilimizin əbədiyaşarlığını təmin etmək məqsədi güdür. Dilimiz yaşadıqca xalqımız və müstəqil dövlətimiz də hər zaman var olacaq.

---

# İrəvan "va-bank" gedir?

**(əvvəli 1-ci səhifədə)**

O, tərəflərin ərazi bütövlüyünün qarşılıqlı tanınmasını təsbit edən 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında Azərbaycanla sülh müqaviləsinin imzalanmasının vacibliyini Kombosun diqqətinə çatdırıb. Yəni, hay diplomat məsələnin mahiyyətini elə formada təqdim edir ki, sanki Alma-Ata Bəyannaməsinin İrəvan üçün müstəsna əhəmiyyəti var. İndi Mirzoyana xatırlatmağı zəruri sayırıq ki, 2020-ci il Vətən müharibəsinə qədər Ermənistan nəinki Azərbaycan torpaqlarını işğal altında saxlayıb, o cümlədən Alma-Ata bəyannaməsinin Azərbaycanla münasibətlərə tətbiqinə imkan verməyən ayrıca qeyd-şərtlə ratifikasiya edib. Mirzoyanın yadına onu da salaq ki, Ermənistanın 44 günlük müharibədən sonra müvəqqəti olaraq Rusiya sülhməramlılarının məsuliyyət zonasındakı ərazidən qoşunlarını çıxarmaqdan imtinası, faktiki olaraq, Alma-Ata Bəyannaməsinə əməl etmək barədə düşünmədiyinin göstəricisi idi. Deyilənlərə onu da əlavə edək ki, 2022-ci ilin oktyabrında İrəvan və Bakı Praqada razılığa gələndən, hətta baş nazir Nikol Paşinyan Qarabağın Azərbaycan torpağı olduğunu bəyan etdikdən sonra da Ermənistan hakimiyyəti qoşunlarının tör-töküntüsünü Qarabağdan çıxarmağa tələsmirdi. Yalnız 2023-cü il sentyabrın 19-20-də bir sutkalıq antiterror tədbiri həm fərari ordunun qalıqlarını, həm də Xankəndidəki separatçı rejimi Azərbaycan ərazisindən qovub çıxardı.

*

Əslində, Ermənistan xarici işlər naziri A.Mirzoyan Lefkoşada üfürdüyü feyk tezisləri ilə heç də Amerikanı təzədən "kəşf eləməyib". Bu, rəsmi İrəvanın çox sevimli taktikasıdır. Açıq-aşkar görünür ki, Ermənistan rəhbərliyi sülh prosesini ləngidir, rəsmən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən imtina edir, özündən mücərrəd yeni "şəraitlər" uydurur, hər vasitə ilə prosesi uzatmağa çalışır. İndi də dünya ictimaiyyətini hər şeydə Azərbaycanın günahkar olduğuna inandırmaq taktikasını yenidən işə salıb. Nəhayət, Mirzoyanın Kipr səfərinin yekunları barədə deformasiyaya uğramış diplomatik təfəkkürünün açıqlaması: "Mən sərhədlərin demarkasiya prosesinin Alma-Ata Bəyannaməsində göstərilən 1991-ci il sərhədinə əsaslanan prinsiplərlə davam etdirilməsinin vacibliyini də vurğuladım. Hesab edirəm ki, bu mövqe aydın və ardıcıldır. Bundan başqa, sərhəddə baş verən insidentlərə və silahlara nəzarət mexanizminin yaradılmasına dair təkliflərimiz hələ də qüvvədədir".




Artıq neçənci dəfədir ki, Avropada təhsil almış Ermənistan xarici işlər nazirinin xəyali, uydurma nüanslarla zəngin, özünütəlqin seanslarının nəticəsi kimi ortaya çıxan və real problemlərdən danışmaq əvəzinə sağlam məntiqə sığmayan mülahizələrinin şahidi oluruq. Ermənistan bir tərəfdən mütəmadi olaraq şərti sərhəddə insidentlər yaradır, digər tərəfdən isə bu cür insidentlərə nəzarət mexanizminin yaradılması "ideyası" ilə çıxış edir. Bu zaman məsələni elə təqdim etməyə çalışır ki, guya, şərti sərhəddə təxribatları özü deyil, Azərbaycan yaradır. İrəvanın son "ideyası"nın ikinci hissəsində göstərilən silahlara nəzarət məsələsinə gəldikdə isə bu, ümumiyyətlə, utopiya sayıla biləcək təklifdir. Nə vaxt və harada görünüb ki, müharibədə uduzan tərəf qalib ölkəyə belə tələblər irəli sürsün? Sanki söhbət bərabər gücə malik iki ölkədən, yaxud, məsələn, NATO və Varşava Müqaviləsi kimi hərbi bloklar arasında uzun müddət davam edən qarşıdurmadan gedir.

*

"Bu məsələlərin kökündə duran əsas tələb Ermənistanın bu proseslərdə siyasi qətiyyətinin olmamasıdır. İndi İrəvan isteblişmenti, bir növ, çaş-baş qalıb. Bilmirlər Vaşinqtonu eşitsinlər, Brüsseli eşitsinlər, Parisi eşitinlər, yoxsa Moskvanı". **Bu fikirləri mövzu ilə bağlı "XQ"-yə açıqlamasında dilə gətirən siyasi icmalçı Tofiq Abbasov** hazırda Ermənistan rəhbərliyinə hər tərəfdən təzyiqlərin olduğunu dedi: "Azərbaycan sağa-sola baxmadan qərarlarını özü verir. Amma Ermənistan, təəssüf ki, idarə olunann satellit bir məmləkətdir. 17 kilometrlik sərhədin delimitasiyasından sonra Nikol Paşinyana daxildən və kənardan hansı təzyiqlərin olduğunu bilirik. Yekun qərar vermək qorxusu onu həm də hakimiyyətinin qeydinə qalmağa məcbur edir. Əgər o, cəsarətini toplayıb, ölkəsinin konstitusiyasında dəyişikliyə birmənalı şəkildə getsə, Azərbaycan və Türkiyə sülhün qaçılmaz olduğunu bəyan etsə, indi çətin görünən məsələlərin müqəddəratı tam aydın olacaq. Onsuz da bu proseslərdə Bakının qalib gələcəyi onun özünə tam aydındır. Bəli, Azərbaycanın gündəmə gətirdiyi bütün məsələlər öz həllini tapmalıdır. İrəvan qarşıdurma, nifrət, revanşist düşüncənin faydasızlığını, çıxış yolunun yalnız və yalnız barışıqdan keçdiyini anlamalıdır. Ararat Mirzoyanın Vaşinqtonda, Parisdə, yaxud Lefkoşada suyu "bulandırmasını" isə daxildəki lümpen kütləyə hesablanmış diplomatik addım kimi dəyərləndirmək daha doğru olar".

Aydın məsələdir ki, bu cür gülünc təkliflərə Bakının cavab verməsini gözləməyə dəyməz. Ararat Mirzoyan özünün Lefkoşa "tezisləri" ilə İrəvanın sülh danışıqlarında irəliləyişə nail olmaq, bu məqsədin qarşısında duran süni maneələri aradan qaldırmaq istəmədiyini bir daha nümayiş etdirmiş oldu. Rəsmi İrəvanın son vaxtlar tez-tez istinad etdiyi Alma-Ata Bəyannaməsinin əsas prinsiplərindən biri – ərazi bütövlüyünə hörmətlə yanaşma prinsipi bu ölkənin əsas qanununda pozulur. Hayastan konstitusiyasında qonşu ölkələrə qarşı ərazi iddialarının yer aldığı müddəalara görə həmin bəyannamə Ermənistanın boynuna qoyur. Gərək biz də bu hüquqi nüansı İrəvanın diqqətinə mütəmadi çatdıraq ki, sərhəddə insidentlərdən danışanda kəkələməyə yol verməsin. Bu məqamda Qərbi Azərbaycan İcmasının bəyanatından bir parçanı oxucuların nəzərinə çatdırmağı zəruri saydıq: "Ararat Mirzoyanın Azərbaycanın sərhəd nəzarəti və silahlara nəzarət mexanizmlərinin yaradılması təklifinə cavab verməməsi ilə bağlı sözləri tamamilə qeyri-səmimi və mənasız bir cəhddir. Özünü beynəlxalq aləmdə konstruktiv tərəf kimi təqdim etməyə çalışan Ermənistan 30 il ərzində bütün dünyanın gözü qarşısında Avropada çoxtərəfli adi silahlara nəzarət mexanizmlərini tapdalayan, Azərbaycan ərazilərini işğal edən, qoşun və silah yerləşdirən Ermənistanın hər hansı digər silahlara nəzarət mexanizmini necə "uyacağına" heç kim şübhə etmir".



Qərbli kuratorlarının şirin vədlərindən illüziyalara qapılan Hayastan, bir növ, mazoxist zövqlə nizəni yavaş-yavaş öz ayağına sancır. Yəni, bütün ağrılara və onun ardınca gələcək fəsadlara baxmayaraq, "va-bank" gedənə oxşayır. İntəhası, İrəvan belə təhlükəli oyunların sonda ölümlə bitə biləcəyini də unutmamalıdır.

*

Qayıdaq hayların baş diplomatının Lefkoşa turnesinə. Mirzoyanın Kipr adasının yunan hissəsinin xarici işlər naziri ilə birgə mətbuat konfransında səsləndirdiyi fikirlər, təəssüf ki, rəsmi İrəvanın uzun aylar davam edən müzakirələrdən və danışıqların yekunlaşması istiqamətində hərəkətliliyə buxov vurmaq niyyətindən xəbər verir. Ermənistan rəhbərliyi, yenə də danışıqları ləngitmə taktikasına üstünlük verib. İrəvandakı özəl mənbələrin yaydığı xəbərlərə görə, Nikol Paşinyan artıq Moskva ilə barışmağa cəhdlər edir. Əgər deyilənlər doğrudursa, çox güman ki, o, bu addımı hakimiyyəti əlində saxlamaq üçün edir. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Moskvanın Bakı və İrəvana dialoqun davam etdirilməsi üçün maksimum şərait yaratmağa, danışıqların hazırlanması və imzalanmasında hərtərəfli yardım göstərməyə hazır olması barədə açıqlaması da hayların baş naziri üçün vəziyyətin məhz bu məcrada inkişaf etdiyini birmənalı təsdiqləyir. Belə görünür ki, Cənubi Qafqazda kənar aktorların güclər balansının dəyişməyə doğru getdiyini nəzərə alan Paşinyanın təklif olunan şərtlərlə razılaşmaqdan başqa yolu qalmayacaq.

Axı, ermənipərəst kollektiv Qərb də Nikol Paşinyan rejimini xilas etməyə hazır deyil. Onlar hesab edirlər ki, əgər Paşinyan ölkə daxilindəki vəziyyətə nəzarət etmək iqtidarında deyilsə, deməli, uduzan tərəflə yolu davam etməyə heç bir əsas yoxdur. Ondansa Ermənistanda yeni lider "yetişdirmək" və ya ölkədəki xaosdan istifadə edərək, Paşinyanın komandasının yerinə marionet hökumət quraşdırmaq Qərb üçün daha cəlbedici ssenaridir.

Ümid edirik ki, bütün bunları nəzərə almağa qadir Ermənistanda rasional düşünən siyasətçilər və məmurlar revanşizm vəsvəsəsinə qalib gələcək və cəmiyyəti dinc həyata, quruculuğa və tərəqqiyə doğru apara biləcəklər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistan üçün alternativ yol qalmayıb

**İyulun 30-da Türkiyə–Ermənistan sərhədində iki ölkənin münasibətlərinin normallaşması prosesi üzrə xüsusi nümayəndələri – Sərdar Kılıç və Ruben Rubinyan arasında keçirilən danışıqların beşinci raundu siyasi gündəmin əsas məsələlərindən birinə çevrilib. Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, görüşdə Rubinyan və Kılıç əvvəlki görüşlərində razılaşdırılmış məsələləri təsdiqləyiblər. “Xüsusi nümayəndələr, həmçinin Akyaka/Axurik dəmir yolu sərhəd qapısının regional inkişaflara uyğun olaraq istifadəyə veriləcəyi təqdirdə tələb olunacaq texniki ehtiyacları qiymətləndirmək və diplomatik pasport sahibləri üçün qarşılıqlı viza prosedurlarını asanlaşdırmaq barədə razılığa gəliblər. Onlar son məqsədi tam normallaşma olan bu prosesi heç bir ilkin şərt olmadan davam etdirməyə razı olduqlarını bəyan ediblər” – deyə qardaş ölkənin XİN-i bəyan edib.**



Ermənistan xarici siyasət idarəsi də görüşün nəticələri ilə bağlı oxşar məzmunda açıqlama yayıb. Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar xüsusi nümayəndələrin görüşünü vacib adlandırıb. Klaar bu barədə “X” hesabında paylaşım edib. “İyulun 30-da Sərdar Kılıç və Ruben Rubinyan arasında Ermənistan–Türkiyə sərhədində mühüm görüş oldu. Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması və kommunikasiyaların yenidən açılması Cənubi Qafqazın daha sabit və firavan olması üçün vacib elementlərdir” – deyə Klaar vurğulayıb.

Heç kəsə sirr deyil ki, Ermənistan hər zaman, o cümlədən Azərbaycan torpaqlarının hələ işğal altında olduğu dövrlərdə sırf öz maraqlarını düşünərək, Türkiyə ilə əlaqələri qaydaya salmağa hazır olduğunu bildirib. İşğal dövründə Ermənistanın Qərbdəki havadarları tərəfindən sərhədi açmaq üçün Ankaraya xeyli təzyiqlər də edilib. Onların məqsədi bir tərəfdən sərhədin açılması vasitəsilə Ermənistanın iqtisadi inkişafını təmin etmək idisə, digər məqsəd Azərbaycanı ən yaxın təbii müttəfiqinin dəstəyindən məhrum etmək idi. Ancaq tarixin bütün sınaqlarından üzüağ çıxan Türkiyə–Azərbaycan dostluğu-qardaşlığı hər dəfə bu oyunları poza biləcək qədər dəyanət nümayiş etdirdi. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın azad edilməsindən sonra Türkiyə ilə Ermənistan arasında əlaqələrin qurulmasına ölkəmizin münasibəti də, təbii ki, ayrı məzmun kəsb etməyə başladı. Yeri gəlmişkən, qeyd edək ki, rəsmi Ankaranın yenə də prosesi ölkəmizin maraqlarını nəzərə almaqla apardığı şəksizdir. Ankara dəfələrlə bəyan edib ki, Ermənistanla münasibətlərinin normallaşdırılması prosesi Azərbaycanla koordinasiya olunmuş şəkildə aparılacaq və İrəvanla Bakı arasında sülhün əldə olunmasından asılı olacaq.

Bu çərçivədə 2021-ci ilin sonlarında Türkiyə tərəfdən peşəkar diplomat Sərdar Kılıç, Ermənistan tərəfdən isə parlamentin sədr müavini Ruben Rubinyan münasibətlərin normallaşması üzrə xüsusi nümayəndə təyin olundular. Onların ilk görüşü 2022-ci ilin yanvarın 14-də Moskvada keçirildi. Bundan sonra xüsusi nümayəndələrin görüşləri mütəmadi xarakter aldı. Sonuncu dəfə xüsusi nümayəndələr 2024-cü il martın 1-3-də keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində görüşmüşdülər.

İyulun 30-da baş tutan görüşün yekunlarına dair fikirlərini “XQ” ilə bölüşən **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev** bildirdi ki, Türkiyə–Ermənistan sərhədi 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğalından sonra



bağlanmışdı. Diplomatik münasibətlərin qurulmaması isə daha əvvələ – 1991-ci ilə gedib çıxır. Bunun səbəbi Türkiyənin ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınmaması ilə bağlıdır. O dövrdə mətbuatda yayılan məlumatlara görə, Türkiyə Ermənistana ərazi bütövlüyünün qarşılıqlı olaraq tanınmasına dair bir protokol imzalamağı təklif edib. İrəvan isə bundan imtina edib. Ermənistanın müstəqillik bəyannaməsində Azərbaycana qarşı olduğu kimi, Türkiyəyə qarşı da ərazi iddiası var. 2020-ci ildə Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması və diplomatik əlaqələrin qurulması istiqamətində görüşlərin keçirilməsinə başlanıldı. Hər iki tərəfdən xüsusi nümayəndələr təyin edildi. Türkiyə tərəfi ölkənin 2014-2021-ci illərdə ABŞ-də səfiri olmuş Sərdar Kılıçı, Ermənistan hökuməti isə parlament sədrinin müavini Ruben Rubinyanı xüsusi nümayəndə təyin etdi. Xüsusi nümayəndələr arasında 2024-cü il iyulun 30-dək 4 görüş keçirilmişdi. Bunlardan ən vacibi 2022-ci il iyulun 1-də keçirilən görüş idi. Çünki həmin görüşdə xüsusi nümayəndələr Ermənistan və Türkiyəyə səfər edən üçüncü ölkə vətəndaşları üçün ən qısa müddətdə Ermənistan–Türkiyə quru sərhədini keçmək imkanı yaratmaq barədə razılığa gəlmişdilər. Həmin razılaşmadan sonra Sərdar Kılıç Ermənistanla sərhədə getdi. Orada texniki baxış keçirdi. Politoloq düşünür ki, baxışın məqsədi sərhədlərin açılacağı təqdirdə texniki imkanların bunun üçün yetərli olub-olmamasını öyrənmək idi. Çünki sərhəd uzun onilliklər ərzində bağlı qalmışdır, keçid, texniki imkanları yoxdur və onun bərpa edilməsinə ehtiyac var idi.

C.Vəliyev qeyd etdi ki, 2023-cü ilin fevralında Türkiyədə baş vermiş zəlzələdən sonra sərhəd açıldı. Ermənistandan Türkiyəyə zəlzələdən zərər çəkənlərə humanitar yardım aparıldı: “Ötən müddət ərzində xüsusi nümayəndələrin görüşləri olmasa belə, qarşılıqlı olaraq media müstəvisində prosesin müzakirəsi gedirdi. Yəni, Türkiyə–Ermənistan diplomatik əlaqələrinin qurulması, sərhədlərin açılması üçün müzakirələr aparılırdı. Amma, əlbəttə ki, burada Azərbaycanın mövqeyi vacibdir. Əsas məsələlərdən biri ötən ay Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ermənistan baş naziri Nikol Paşinyan arasında telefon danışığının həyata keçirilməsindən ibarət oldu. Telefon danışığı zamanı Türkiyə tərəfdən diplomatik əlaqələrin qurulmasının və sərhədlərin açılmasının heç bir ilkin şərt olmadan həyata keçirilməsi istiqamətində açıqlama verildi. Son iki aydır ki, Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində proses davam edir. İyulun ortalarında Ermənistan tərəfdən bu istiqamətdə bir açıqlama verildi. İyulun 26-da Paşinyan Armavir vilayətinə səfəri zamanı “Marqara” sərhəd-keçid məntəqəsinə gəldi və orada aparılan modernləşdirmə işləri ilə tanış oldu. İyulun 30-da isə xüsusi nümayəndələrin görüşü keçirildi”.

Müsahibimiz bildirdi ki, görüşdən sonra mediaya verilən açıqlamada olduqca vacib məsələlər öz əksini tapdı. Görüşdə yeni razılaşmanın əldə edildiyi açıqlandı. Burada da xüsusi nümayəndələr son məqsədi tam normallaşma olan bu prosesi heç bir ilkin şərt olmadan davam etdirməyə razı olduqlarını təsdiqlədilər. Digər tərəfdən diplomatik pasport sahibləri üçün viza prosedurunun asanlaşdırılması, eyni zamanda, ehtiyac yarandığı təqdirdə dəmir yolu sərhəd qapısının texniki imkanlarının yaxşılaşdırılması qərara alındı. Yəni, sərhəd açılmadı, amma sərhədin bir gün açılması üçün bütün texniki və siyasi imkanlar hazırlanır.

Politoloqun sözlərinə görə, vacib nüans odur ki, proses Bakı və İrəvan arasında aparılan sülh danışıqlarına paralel olaraq gedir: “İndiki mərhələdə belə görünür. Çünki Azərbaycanla Ermənsitan arasında müəyyən razılaşmalar əldə olunub. Bura Qazax rayonunun 4 kəndinin qaytarılmasını, COP29-la bağlı əldə edilən razılaşmanı aid etmək olar. Daha sonra Azərbaycanın COP29-a Ermənistanı dəvət etdiyi açıqlandı. Məncə, Ankara İrəvanla bu prosesi Ermənistanla Azərbaycan arasında gedən danışıqlara paralel olaraq aparır. Azərbaycanla Ermənistan arasında çərçivə sazişinin imzalanması Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması, diplomatik əlaqələrin qurulması prosesinə də əlavə təkan verə bilər”.

Onu da bildirək ki, Ermənistanda radikal düşərgəni təmsil edən bir sıra şəxslər görüşlə bağlı ənənəvi mövqelərini ortaya qoyublar. Türkoloq Ruben Safrastyan bildirib ki, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesində ciddi irəliləyişlərə ümid etmək olmaz. Onun sözlərinə görə, Türkiyə dəfələrlə bəyan edib ki, Ermənistan və Azərbaycan sülh müqaviləsi imzalamayana qədər bu baş verməyəcək. Buradan belə nəticə çıxır ki, indiki mərhələdə Ermənistan–Türkiyə sərhədinin açılmasını gözləmək lazım deyil: “Türkiyə başqa varianta getməyəcək, çünki artıq müvafiq qərarı açıqlayıb”.

Politoloq Yervand Bozoyan isə bildirib ki, Rubinyan–Kılıç görüşü Ermənistana yaxşı heç nə verə bilməz və bunu ciddi qəbul etmək olmaz. “Hraparak” qəzetinə açıqlama verən Bozoyan sərsəmləməsini belə davam etdirib: “Türkiyə Ermənistan–Azərbaycan münasibətləri tam nizamlanandan, yəni sülh müqaviləsi imzalanandan sonra İrəvanla münasibətləri normallaşdıracağını deyir. Amma problem bunda deyil, problem Türkiyə və Azərbaycanın Ermənistana münasibətdə yürütdükləri siyasətdədir. Ankara və Bakı Ermənistanın heç bir ciddi müttəfiqinin olmadığını, Nikol Paşinyanın könüllü olaraq potensial müttəfiqlərini tərk etdiyini, onlarla təkbətək qaldığını başa düşürlər. Buna görə də onlar tələblərini artırmaqda davam edirlər. Təbii ki, onlar İrəvanı dərhal deyil, tədricən istəyəcəklər”.

Ermənistanda bu cür düşünən “ekspert”lərin mövcudluğuna baxmayaraq, ölkə hakimiyyəti və cəmiyyətin böyük əksəriyyəti Hayastanın Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaqdan başqa yolunun olmadığını başa düşürlər. Onlar anlayırlar ki, Ermənistan yalnız Türkiyə və Azərbaycana qarşı ərazi iddialarından imtina etməklə, aqressiv ritorikadan əl çəkməklə, sülh, sabitlik və qonşularla əməkdaşlıq şəraitində inkişaf edə bilər. Elə Paşinyan hökumətinin Rubinyanı görüş üçün sərhədə göndərməsi də bundan xəbər verir...

***Səxavət HƏMİD***
***XQ***

# 4 hərbçinin ölümü ilə bağlı araşdırma davam etdirilir

**Laçın rayonu ərazisində Azərbaycan Ordusunun 4 nəfər hərbi qulluqçusunun – Emnalıyev Asif Qəhrəman oğlu, Səmədov Tural Maşallah oğlu, Şahmarlı Emin Oqtay oğlu və Cəbrayılov Fərid Famil oğlunun meyitlərinin aşkar edilməsi barədə Qubadlı Hərbi Prokurorluğuna məlumat daxil olub.**

Bu barədə XQ-yə Respublika Hərbi Prokurorluğundan bildirilib. Qeyd edilib ki, daxil olmuş məlumat əsasında Qubadlı Hərbi Prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinin əməkdaşları tərəfindən hadisə yerinə və meyitlərə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, müvafiq ekspertizalar təyin edilərək icraya yönəldilib, eləcə də izahatlar alınıb və digər hərəkətlər icra edilib.

Hazırda Qubadlı Hərbi Prokurorluğunda araşdırma davam etdirilir.

Allah hərbçilərimizə rəhmət eləsin!




# Sülh sazişinin mətninin yekunlaşmasına çox yaxınıq

**“Azərbaycanla Ermənistan arasında sülh prosesinin indiki mərhələsinə baxdıqda sülh sazişinin yekunlaşması istiqamətində substantiv irəliləyiş əldə etdiyimizi qeyd etməliyik”. Bu sözləri ABŞ-da səfərdə olan Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov “Hudson” İnstitutunda keçirilən müzakirələr zamanı deyib.**




O bildirib ki, tərəflər heç zaman sülh sazişinə bu qədər yaxın olmayıb: “Hər iki ölkə üçün düşmənçilik səhifəsini bağlamaq, Cənubi Qafqaz regionunun təbiətini dəyişmək, onu yaxın qonşuluq, sülh və sabitlik bölgəsinə çevirmək üçün tarixi imkan yaranıb. Bu proses uzun müddətdir davam edir. 30 ilə yaxın vasitəçilik danışıqları aparılıb. Lakin ötən ilin dekabrında hər iki ölkə danışıqları aparmaq və yekunlaşdırmaq üçün ən effektli və perspektivli formatın ikitərəfli və birbaşa formatda olması ilə bağlı qərara gəldi. O vaxtdan qarşılıqlı etimadın qurulması və müəyyən proseslərin davam etməsi, o cümlədən diplomatik dəstək mübadiləsi, bəzi həbsdə saxlanılanların azad olunması, sərhədlərin delimitasiyası üçün əməli işlərin başlanılması daxil olmaqla əhəmiyyətli nailiyyətlər əldə olunub”.

Elçin Əmirbəyov əlavə edib ki, masa üzərində olan sülh sazişinin mətninə baxdıqda demək mümkündür ki, onun yekunlaşmasına çox yaxınıq: “Azərbaycanın istəyi beynəlxalq ictimaiyyətin gözləntilərini qarşılamaq üçün əlindən gələnin ən yaxşısını etməkdir. Amma eyni zamanda, Azərbaycan kökündə Ermənistanın ərazi iddiaları duran bu münaqişəni birdəfəlik həll etmək istəyir. Biz ümid edirik ki, yerdə qalan çətinliklər qısa zamanda lazımi qaydada həll olunacaq və biz etibarlı, davamlı və geri dönülməz sülhə nail olacağıq”.

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vurğulayıb ki, sülh sazişini yekunlaşdırmaq üçün yeganə maneəni aradan qaldırmaq daha çox Ermənistanın bacarıq və istəyindən asılıdır. Bu maneə Ermənistanda konstitusion şəkildə təsbit edilmiş Azərbaycana qarşı ərazi iddialarıdır. Sülh sazişinin mətninə baxdıqda öhdəsindən gəlinməyəcək başqa çətinlik görünmür.

“Bu yaxınlarda da qeyd edildiyi kimi, sülh sazişinin mətninin əksər hissəsi artıq razılaşdırılıb və geri qalan hissələri də həll oluna biləndir. Lakin biz münaqişənin mövcud olan ən böyük səbəbinə göz yumaraq irəli gedə və sülh sazişini imzalaya bilmərik. Bu səbəb isə odur ki, Ermənistanın bizə qarşı ərazi iddiaları var idi və bu iddialar konstitusiya hüququna əsasən hələ də aktualdır. Bu məsələ nə qədər tez həll olunsa, biz sonuncu mərhələyə o qədər tez yaxınlaşacağıq”,- deyə Elçin Əmirbəyov qeyd edib.

O bildirib ki, ABŞ hər zaman geniş mənada Xəzər regionunda, o cümlədən Cənubi Qafqazda sabitliyin və mehriban qonşuluğun təbliğ olunmasında vacib rol oynayıb. Rəsmi Bakı ABŞ-ın Azərbaycanın siyası müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəyini yüksək qiymətləndirib.

“Bizim müxtəlif sahələrdə 30 ildən çox davam edən intensiv əməkdaşlığımız mövcuddur. Ölkələrimiz arasında enerji sahəsində uzunmüddətli və məhsuldar əməkdaşlıq var. Həmçinin biz böyük regional və beynəlxalq çağırışlara cavab vermək üçün birlikdə işləmişik. Azərbaycan əsgərləri Əfqanıstan, Kosovo və İraq kimi qaynar nöqtələrdə amerikalı hərbçilərlə çiyin-çiyinə döyüşüb və biz Kabil Hava Limanını ən son tərk edənlərdənik”, - deyə Elçin Əmirbəyov əlavə edib.

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi qeyd edib ki, regionda iki xalqın münaqişə və rəqabəti bitirməsi, bölgədə rifah, stabillik və inkişaf naminə yeni dövrün başlatması Ermənistanla da çox yaxşı əlaqələrə malik olan ABŞ-ın da marağındadır: “Biz ABŞ-ın prosesin daha da irəliləməsini asanlaşdırmaq üçün göstərdiyi səyləri təqdir edirik. Düşünürəm ki, belə təlatümlü zamanda dünyada sülh üçün yaxşı imkanın olduğu və məsələnin müsbət həllinin baş verəcəyi ən azı bir nöqtə tapmaq sevindirici haldır”.

Ermənistan baş nazirinin Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı açıqlamalarını diqqətə çatdıran E.Əmirbəyov deyib: “Konstitusiya dəyişikliyinin Ermənistanın baş naziri Nikol Paşinyan üçün nə qədər çətin olmasından danışarkən unutmamalıyıq ki, o, ən çətin işi artıq edib. O, açıq şəkildə bildirib ki, Azərbaycana qarşı ərazi iddiaları yoxdur. N.Paşinyan hətta Azərbaycan ərazisi hesab etdiyi ərazini kvadrat kilometrinədək qeyd edib. Ölkənin xarici işlər naziri isə sülh sazişi layihəsinə daxil edilmiş 5 fundamental baza prinsipini qəbul etdiklərini açıqlayıb. Prinsiplərdən biri ölkələrin bir-birinin ərazi bütövlüyü və suverenliyinə hörmətdir. Bu da indi və gələcəkdə istənilən ərazi iddiasından imtina etmək deməkdir. Paşinyandan gözlənilən onun ritorika və siyasi bəyanatlarını real vəziyyətə uyğunlaşdırmasıdır. Əgər o, sadəcə olaraq deyirsə ki, bu məsələni həll etmək onun üçün çətindir, çünki ölkə daxilində çətinliklərlə üzləşəcək, bu, bizim üçün zəif arqumentdir. Bizim ondan gözlədiyimiz baş nazir kimi elan etdiyi Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olması, Ermənistanın ona qarşı iddialarının olmaması və bunun əsasında da qonşuları ilə əlaqələrini normallaşdırmağa hazır olması barədə bəyanatlarını icra etməsidir. Yeganə lazımi addım bu münaqişənin tək səbəbini aradan qaldıracaq konstitusiya dəyişikliyidir. Təsəvvür edin ki, biz bu sazişi imzalayırıq və bir müddət sonra Ermənistanda yeni hökumət hakimiyyətə gəlir və bildirir ki, saziş əvvəlki baş nazir tərəfindən imzalanıb və legitim deyil, çünki konstitusiya ilə ziddiyyət təşkil edir. Bu, o deməkdir ki, onlar gələcək revanşist ritorikalar üçün qapıları açıq saxlayırlar. Ona görə də, sülhün əldə olunmasını istəyən heç bir kəs bu məsələni gözardı edə bilməz”,- deyə Elçin Əmirbəyov qeyd edib.

Azərbaycanın regionda olan çətinliklər, çağırışlar və problemlərlə bağlı yanaşmasının hərtərəfli olduğunu qeyd edən Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi bildirib ki, Ermənistan və Türkiyə arasında əlaqələrin inkişafının Ermənistanla Azərbaycan arasında münasibətlərdə əldə edilə biləcək irəliləyişdən asılı olduğunu Türkiyə anlayır. “Çünki Türkiyə ilə Ermənistan arasında sərhədlərin bağlanmasının əsas səbəbi də Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalıdır. Biz Türkiyə ilə eyni mövqedəyik. Türkiyə də anlayır ki, Cənubi Qafqazda ərazi iddiası məsələsi tez bir zamanda həll olunmalıdır və sülh prosesi ətrafında onsuz da həssas olan atmosferi daha da ağırlaşdıracaq istənilən addımdan qaçmaq lazımdır”, - deyə Elçin Əmirbəyov əlavə edib.

O, beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun 29 ildə edə bilmədiyini Azərbaycanın təkbaşına etdiyini vurğulayaraq bildirib ki, əvvəlki illərdə Fransa bərabər münasibət nümayiş etdirməyə çalışsa da, İkinci Qarabağ müharibəsindən sonra iki ölkədən birini tam dəstəkləməyə başlayıb. “Ona görə də, bunlar hazırda müşahidə etdiklərimizin başlanğıc nöqtəsi kimi qəbul olunmalıdır. Fransa bu gün sülh prosesinə ən azından hiss olunacaq şəkildə cəlb olunmayıb. Bu tək Fransa ilə Azərbaycan münasibətləri ilə yox, həm də Azərbaycan və Ermənistanın sülh prosesini birbaşa ikitərəfli formatda aparmaq və yekunlaşdırmaq qərarı ilə bağlıdır”,- deyə Elçin Əmirbəyov əlavə edib.

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi bildirib ki, müharibə başlayandan Fransada istər icraedici hakimiyyətin, istər parlamentin 2 palatasının, istərsə də çoxsaylı bələdiyyələrin və digər seqmentlərin ictimai şəkildə ifadə etdiyi mövqe beynəlxalq hüquqa ziddir: “2020-ci ildə 44 günlük müharibədə Azərbaycanın etdiyi ədalətin bərpası idi. Azərbaycan Ermənistanın təxribatlarına cavab olaraq apardığı 44 günlük uğurlu hərbi əməliyyatlar nəticəsində ərazi bütövlüyünü bərpa etdi. Fransanın tək Azərbaycan deyil, həm də beynəlxalq hüquqa qarşı qərəzli mövqeyi anlaşılan deyil. Münasibətlərin korlanmasının əsas səbəbi budur. Ümid edirəm ki, bu mövqe sona yetəcək və Fransa beynəlxalq ictimaiyyətin digər üzvləri kimi regionun yeni reallıqlarını və nəhayət, yeni status-kvonu qəbul edəcək”.



# Milli Məclisə seçkilərə 30 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Növbədənkənar seçkilərlə əlaqədar "dəyirmi masa"



**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə təşkilatçılığı ilə "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda "dəyirmi masa" təşkil edilib.**

Hər iki qurumun əməkdaşlarının, həmçinin media nümayəndələrinin qatıldıqları tədbirdə çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov müvafiq dövlət qurumları ilə birgə təşkil edilən genişmiqyaslı maarifləndirmə layihələrinin seçkilərin azad, ədalətli və şəffaf keçirilməsindəki əhəmiyyətindən bəhs edib, seçki qanunvericiliyinin və seçki təcrübəsinin daha da təkmilləşdirilməsi istiqamətində görülən işlər və atılan addımlardan danışıb, parlament seçkilərinin qanunvericiliyin tələbləri əsasında, beynəlxalq standartlara tam cavab verən, yüksək səviyyədə təşkili üçün müvafiq şəraitin yaradıldığını diqqətə çatdırıb.

Seçki prosesində media subyektlərinin üzərinə düşən vəzifələri vurğulayan MSK sədri, həmçinin seçkilərdə yerli və beynəlxalq müşahidənin həyata keçirilməsi üçün yaradılan hərtərəfli və geniş imkanları iştirakçıların diqqətinə çatdırıb.

Ombudsman Səbinə Əliyeva vətəndaşların seçki hüququnun daha səmərəli təmin olunması və seçki sisteminin hərtərəfli inkişaf etdirilməsi üçün seçki subyektlərinin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə birgə maarifləndirici tədbirlərin həyata keçiriləcəyini bildirib. Artıq MSK ilə birgə növbədənkənar parlament seçkiləri ərəfəsində həmin tədbirlərin keçirilməsi üzrə təqvim planının təsdiqləndiyini və icrası istiqamətində zəruri addımların atıldığını diqqətə çatdırıb.

Müvəkkil seçkilərin Seçki Məcəlləsinə uyğun həyata keçirilməsinin ölkəmizin hüquqi, demokratik dövlət quruculuğu, insan hüquq və azadlıqlarının təmini, milli qanunvericiliyin inkişafı prinsiplərinə daim sadiq olduğunu bir daha təsdiqlədiyini deyib.

Eyni zamanda, ombudsman, onun aparatının və regional mərkəzlərinin əməkdaşları ötən illərdəki müsbət təcrübəyə uyğun olaraq həm Bakıda, həm də ölkənin bütün regionlarında müstəqil şəkildə, özlərinin təşəbbüsü ilə müşahidəçi qismində növbədənkənar parlament seçkilərinin müşahidəsini aparacaqları qeyd edilib.

S.Əliyeva, həmçinin ombudsman təsisatının əvvəlki seçkilər zamanı həyata keçirdiyi fəaliyyət nəticəsində əldə etdiyi təcrübə əsasında seçki hüquqlarının daha səmərəli təmin olunması ilə bağlı tövsiyələrini verib.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov "Seçki hüququnun səmərəli təminatına konstitusional və qanunvericilik imkanları" mövzusunda məruzə ilə çıxış edib. O, ölkəmizin mövcud seçki qanunvericiliyi və seçkilərin yüksək səviyyədə keçirilməsi istiqamətində atılan məqsədyönlü addımların seçicilərin öz konstitusion hüquqlarını azad və sərbəst şəkildə həyata keçirməsinə şərait yaratdığını bildirib.

Ombudsman aparatının rəhbəri Aydın Səfixanlı "Müşahidəçilik institutunun əhəmiyyəti və ombudsmanın bu prosesdə rolu" mövzusunda çıxışı zamanı seçki prosesində müşahidəçilik institutunun tətbiqinin əhəmiyyətindən bəhs edib. Aparat rəhbəri müşahidəçilik institutunun vətəndaşların seçki hüququnun müdafiəsinə, seçki prosesi zamanı yarana biləcək çatışmazlıqların aradan qaldırılmasına, aşkarlıq və şəffaflıq mühitinin yaradılmasına töhfə verdiyini bildirib, ombudsman təsisatının müşahidəçilik təcrübəsindən danışıb.

# ATƏT/DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri ilə görüş

**Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov iyulun 31-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun qarşıdan gələn Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki müşahidə missiyasının rəhbəri Ditmir Buşati ilə görüşüb.**



Sədr M.Pənahov missiyanın rəhbəri və üzvlərini salamlayaraq MSK-da keçirilən görüşdən məmnunluğunu ifadə edib. Seçkilərin geniş aşkarlıq və şəffaflıq mühitində hazırlanıb keçirilməsində müşahidəçilik institutunun mühüm rol oynadığını vurğulayan M.Pənahov beynəlxalq müşahidəçilərin Azərbaycanda keçirilən seçkilərə böyük maraq göstərməsini yüksək qiymətləndirib. O, həmçinin rəhbərlik etdiyi ali seçki qurumunun beynəlxalq təşkilatlarla əməkdaşlığa açıq olduğunu, istər MSK, istərsə də aşağı seçki komissiyalarında proseslərin müşahidəçilər və bütün maraqlı subyektlər üçün şəffaf reallaşdırıldığını diqqətə çatdırıb.

Səmimi qəbul və görüş üçün təşəkkürünü bildirən D.Buşati Azərbaycanda olduqları müddətdə MSK ilə yaxından əməkdaşlıq ediləcəyini deyib. Müşahidə missiyasının rəhbəri, eyni zamanda, MSK sədrindən Milli Məclisə seçkilərə hazırlıqların gedişi barədə məlumat verilməsini xahiş edib.

M.Pənahov komissiyanın maarifləndirmə proqramı çərçivəsində seçicilər və aşağı seçki komissiyalarının üzvləri də daxil olmaqla, fərqli statuslu seçki iştirakçıları üçün reallaşdırılan və nəzərdə tutulan genişmiqyaslı layihələr, seçici siyahılarının davam etməkdə olan dəqiqləşdirilmə prosesi, namizədlərin irəli sürülməsi və qeydə alınması, seçkiqabağı təşviqatla bağlı yaradılan imkanlar barədə ətraflı məlumat verib. Sədr bildirib ki, 2024-cü il Azərbaycan Respublikası Prezidenti seçkilərindən sonra Milli Məclisə seçkilər də ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcək. Otuz illik işğaldan sonra azad olunmuş regionlardakı səsvermə hüququna malik vətəndaşlarımızın konstitusion hüquqlarının təmin edilməsi üçün həmin ərazilərdəki daimi seçki məntəqələrinin sayı daha da artırılaraq 34-ə çatdırılıb.

Qonaqların suallarını cavablandıran MSK sədri həmişə olduğu kimi, yenə də seçki müşahidə missiyasının üzvlərini istədikləri vaxt komissiyanın fəaliyyətini və həyata keçirilən prosesləri birbaşa izləməyə dəvət edib, bunun üçün hər cür imkan yaradıldığını diqqətə çatdırıb.

Görüş zamanı, həmçinin Milli Məclisə seçkilərlə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.



# Laçınlıların seçki sevinci

**"Otuz ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə parlament seçkiləri keçiririk. Bu, bütün ölkə ərazisini əhatə edəcək və "Qarabağ Azərbaycandır!" reallığının bir daha dünyaya nümayişi olacaq. Hər birimiz üçün qürurverici haldır ki, keçmiş məcburi köçkün olaraq doğma ata-baba yurdumuzda seçici kimi ikinci dəfə səsverməyə qatılırıq. Bu seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin növbəti təsdiqidir".**

Bu fikirləri işğaldan azad edilmiş Laçın rayonu ərazisində ilk dəfə keçirilən növbədənkənar parlament seçkiləri barədə fikirlərini "Xalq qəzeti"nə bildirən 121 saylı Laçın dairə seçki komissiyasının sədri Hüseyn Səfərov bildirdi.

Seçki dairəsinin sədri qeyd etdi ki, parlament seçkilərinin ölkəmizin bütün ərazisində keçirilməsi olduqca qürurverici və əlamətdar hadisədir: "Əlbəttə, xalqımızın yaşadığı bu qürurun memarı möhtərəm Prezidentimiz İlham Əliyevdir. O, uzaqgörən, müdrik siyasəti ilə Azərbaycan xalqına verdiyi bütün vədləri yerinə yetirib. Məhz Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan tarixi torpaqlarını işğaldan azad etdi, ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olundu. Bu gün Azərbaycan bayrağı Şuşada, Xankəndidə, Xocalıda, Laçında, Kəlbəcərdə, Füzulidə, Zəngilanda, Cəbrayılda, eləcə də ölkəmizin işğaldan azad olunmuş digər şəhər və kəndlərində qürurla dalğalanır. Növbədənkənar parlament seçkilərinə də qalib, müzəffər xalq olaraq alnıaçıq, üzüağ gedirik. Parlament seçkiləri də Zəfər seçkisi olaraq müstəqillik tariximizdə əbədi qalacaq. Bu gün Qarabağımız və Şərqi Zəngəzurumuz dirçəlir. Soydaşlarımızın otuz ildən sonra doğma ata-baba yurdlarına qayıdırlar. Onların doğma yurd-yuvalarına qayıtdıqları ünvanların sayı getdikcə artır.

"Artıq böyük həvəs və ruh yüksəkliyi ilə parlament seçkilərinə hazırlaşırıq"– deyən seçki dairəsinin sədri seçki kampaniyası başlanandan indiyədək bütün işlərin qanun çərçivəsində, demokratik prinsiplər üzərində quruldluğunu qeyd etdi. Namizədliyini irəli sürənlərin hər birinə bərabər imkanlar yaradılıb. Kimin xalq arasında nüfuzu, hörməti varsa, deputat mandatını da o qazanacaq. Seçkilərin obyektiv, demokratik, şəffaf keçirilməsinin bir səbəbi də Azərbaycanda dərin köklərə malik demokratiyanın təzahürüdür.

H.Səfərov onu da bildirdi ki, Laçın rayonunun mərkəzində 2, Zabux, Sus, Zerti və Qorçu kəndlərin hər birində seçki məntəqələri yaradılıb. Parlament seçkilərində həmin kəndlərin sakinləri dədə-baba yurdlarında səs verəcəklər: "Vaxtilə haqqı tapdanan, səsi eşidilməyən, hərbi təcavüzə məruz qalan, torpaqları işğal edilən Azərbaycan bu gün regionun lideri, dünyanın strateji əhəmiyyətli ölkəsidir. Otuz il yurd həsrəti ilə yaşayan laçınlılar rayon mərkəzində və kəndlərində parlament seçkisinə hazırlaşırlar".

DSK sədri bildirdi ki, ümumilikdə, dairə 110 seçki məntəqəsini əhatə edir. Həmin məntəqələr laçınlıların məskunlaşdıqları respublikanın təxminən 48 rayonunda yerləşir. Seçki prosesi zamanı tələb olunan ləvazimat vaxtında çatdırılıb. İnanırıq ki, bu seçkiləri də mütəşəkkil şəraitdə keçirəcəyik. Laçınlılar növbəti seçkilərdə hamılıqla doğma dədə-baba yurdlarında səs verəcəklərinə əmindirlər.

# Yerlərdə seçici fəallığı

**Parlament seçkilərinin şəffaf və ədalətli keçirilməsi, seçici fəallığının artırılması üçün bütün imkanlar yaradılır. Son illər ölkəmizdə keçirilən seçkilərin insidentsiz və seçkinin nəticəsinə təsir edəcək ciddi qanun pozuntusu olmadan başa çatması beynəlxalq aləmdə də etiraf olunur. Budəfəki seçkilərdə də bu ənənənin davam etdirilməsi prioritet vəzifələrdəndir. Seçkilərə hazırlıqla tanış olmaq üçün regionlara üz tutduq.**



## Şamaxı

88 saylı Şamaxı seçki dairəsinin sədri Hüseyn Rəcəbov parlament seçkilərinə hazırlığın yüksək səviyyədə aparıldığını bildirdi. Seçkilər sahəsində çoxillik təcrübəsi olduğunu deyən H.Rəcəbov seçkidən-seçkiyə prosesin təkmilləşdiyini, irəliyə doğru addımlar atıldığını, ədalətli, demokratik və şəffaf seçkilər istiqamətində uğurların çoxaldığını qeyd etdi: Bunu seçkiləri müşahidə edən beynəlxalq müşahidəçilər də etiraf edirlər: "15 ildən artıqdır ki, seçki prosesi ilə məşğul oluram. Bu illər ərzində Şamaxıda çoxlu sayda beynəlxalq müşahidəçilərlə qarşılaşmışam. Onlar ölkəmizdə keçirilən seçkilərdə şəffaflığın təmin olunduğunu, hər dəfə yeniliklə qarşılaşdıqlarını etiraf ediblər. Bu dəfə də Azərbaycan demokratik seçki keçirmək sahəsində zəngin təcrübəyə malik olduğunu sübut edəcək. Parlament seçkilərinə bir ay qalsa da, artıq bu istiqamətdə hazırlıq işləri yekunlaşmaq üzrədir və seçici fəallığı özünü indidən biruzə verir".

DSK sədri dedi ki, zəngin qanunvericilik bazası, ən müasir texniki təchizat və beynəlxalq standartlara uyğun digər prinsiplər demokratik səviyyədə seçki keçirməyimizə kömək edir: " Daxili siyasi vəziyyət, ayrı-ayrı seçki institutlarının mövcudluğu, seçkilərdə iştirak edən, seçən və seçilən insanların hüquqlarının qorunması da bunu deməyə əsas verir. İndiyədək öz təcrübəmizdə daim bu prinsiplərə əsaslanaraq ədalətli seçki keçirməyə nail olmuşuq.

H. Rəcəbov seçkilərə hazırlıq işləri barədə danışarkən dedi ki, dairənin ərazisində 60 seçki məntəqəsi var: "Seçicilərin sayı tez-tez dəyişdiyindən dəqiq rəqəm söyləmək mümkün deyil. Baxmayaraq ki, seçici siyahıları məntəqələrdə yerləşdirilib, ancaq seçkiyə 25 gün qalmış bir daha dəqiqləşdirmə aparılacaq".

O, Şamaxının mürəkkəb relyefili kəndləri var ki, rayon mərkəzindən xeyli uzaqda, dağda yerləşdiyni vurğuladı: "Məsələn, Nağaraxana, Talış Nuru, Dədəgünəş, Kecməddin, Qaleybuğurd kəndləri dağda yerləşir. Bu kəndlərə gedib-gəlmək çox vaxt aparır, əziyyət tələb edir. Buna baxmayarq, həmin kəndlərdə seçki məntəqələri artıq tam formalaşdırılıb və bütün texniki vasitələrlə təchiz olunub. Hətta elə kəndlərimiz var ki, orada veb-kameralar quraşdırılıb. Bu da uzaq dağ kəndlərində də seçkilərin şəffaf keçirilməsinin təmin olunmasından xəbər verir. Ümumilikdə, dairənin əhatə etdiyi olan 11 seçki məntəqəsində veb-kamera quraşdırılıb".

Hazırda seçki prosesinin ən qızğın mərhələsi olduğunu deyən H.Rəcəbov namizədliyin irəli sürülməsindən söhbət açdı. Dedi ki, rayonumuzda kimsə deyə bilməz ki, namizədliyini irəli sürərkən hansısa süni əngəllə qarşılaşıb: " Hər kəsə bərabər şərait yaradılıb. Onların təşviqat-təbliğatları da qanunvericiliyin tələblərinə uyğun nəzərdə tutulub. Atımış seçki məntəqəsində təşviqat lövhələri quraşdırılıb. Bu il ilk dəfə səs verəcək 507 gənclə də mərhələ-mərhələ görüşlər keçirilməsini qərara almışıq. Sentyabrın 1-də 9 nəfərin 18 yaşı tamam olacaq. Onlara həm doğum günü, həm də ilk dəfə səs verdikləri üçün MSK tərəfindən təbrik məktubları hazırlanıb. Yaşı 100-ü ötmüş 5 seçicimiz var. Onlar müraciət edərlərsə, yaşadıqları ünvana seçki qutusu göndəriləcək. Seçici fəallığını daha da artırmaq məqsədilə MSK tərəfindən hazırlanmış seçkilərə çağırış plakatlarından istifadə edəcəyik".

## Qax

"Ölkəmizdə keçirilən seçkilər şəffaflığına görə, dünyaya nümunə göstərilə biləcək seçkilərdəndir. Ən qabaqcıl ölkələrindən biridir. Son illərdə seçkilərin şəffaflığının təmin olunması istiqamətində atılan addımlar da bunu təsdiqləyir. Seçki prosesində rəngsiz mürəkkəblərdən istifadə olunması, seçki məntəqələrinin veb-kameralarla təchiz edilməsi buna sübutdur. Bütün bunlar ölkəmizdə demokratik prinsiplərin daha da inkişaf etdirilməsinə yönəldilib. Seçkilərdə namizədlər arasında açıq və sivil mübarizənin aparılması vətəndaş cəmiyyətinin inkişafına öz töhfəsini verir. Növbədənkənar parlament seçkilərinə yüksək səviyyəli hazırlıq da bundan xəbər verir".

Bu fikirləri redaksiyamıza 113 saylı Qax-Şəki seçki dairəsinin sədri Abdulkərim Əliyev dedi.

DSK sədri seçkilərlə bağlı hazırlıqdan danışarkən bildirdi ki, yaradılan münbit şərait vətəndaşların seçkidə namizəd kimi də iştirakına stimul verir: "Seçkinin şəffaf, ədalətli keçəcəyinə əmin olan vətəndaşlarımız seçilmək hüququndan istifadə edirlər. Bu gün ölkəmizdə fəaliyyət göstərən fərqli təmayüllü siyasi partiyaların seçkidə iştirakla bağlı verdikləri qərar da bu fikri təsdiq edir. Respublikamızda fəaliyyət göstərən 26 siyasi partiyanın 25 -nin bu siyasi kampaniyaya qatılması parlament seçkilərinə olan maraqdan irəli gəlir".

A.Əliyev, həmçinin qeyd etdi ki, hazırda seçkilərdə namizədlərin irəli sürülməsi, imza vərəqələrinin yoxlanılması və qeydə alınması mərhələsidir. Buna ayrılan vaxt bir neçə günə başa çatdığından gərginlik daha da artıb. Onun sözlərinə görə, seçki məntəqələri iki rayonun ərazisində yerləşdiyindən işlər çoxalıb: "Dairənin əhatəsində 73 seçki məntəqəsi var. Onlardan 60-ı Qaxda, 13- ü isə Şəkidə yerləşir. Üç seçki məntəqəmiz isə dağlıq ərazidədir. Göründüyü kimi, məntəqələrin hamısını formalaşdırmaq böyük zəhmət tələb edir. Çətinliklərə baxmayaraq, bütün seçki məntəqələri hazır vəziyyətə gətirilib. Hətta namizədliyi qeydə alınanların təbliğat-təşviqat materallarının yerləşdirilməsi də nəzərə alınıb. Bütün seçki məntəqələrinin yaxınlığında xüsusi lövhələr quraşdırılıb, seçicilərlə görüşmək üçün açıq və qapalı yerlər müəyyənləşdirilib".



113 saylı seçki dairəsinin sədri şəffaflığın təmin olunmasında veb-kameraların əhəmiyyətindən də söz açdı. O, 10 seçki məntəqəsinə veb-kamera quraşdırıldığını bildirdi. Sədrin sözlərinə görə, artıq seçici siyahıları asılıb, amma bu, dəqiqləşdirilmiş son siyahı deyil. Çünki seçkiyə qədər müəyyən dəyişikliklər ola bilər. Şəffaflığın təmin olunmasnda müşahidəçilərin də rolunun böyük olduğunu bildirən DSK sədri onların seçki prosesini rahat müşahidə etmələri üçün əlverişli şərait yaradıldığını dedi.

*Səhifəni hazırladılar:*
*Əliqismət BƏDƏLOV ,*
*İmran BƏDİRXANLI*
*XQ*

# Siyasi liderlik

IV MƏQALƏ

**Lider açıq oynayır.**

**Teodor Ruzvelt**

## Liderliyin tarixi missiyasının "sınması": ABŞ nümunəsi

Tarixi təcrübəyə görə, hər bir müstəqil dövlət üçün yeni tarixi mərhələdə yeni milli ideyanın cəmiyyət tərəfindən qəbul edilməsi prinsipial xarakter daşıyır. Adətən, liderliyin tarixi missiyası bu nöqtədə "qırılır". Belə halı XX əsrdə Almaniyada, Böyük Britaniyada, Misirdə, Fransada və indi ABŞ-də müşahidə edirik. Amerikada liderliyin tarixilik xəttinin "sınmasını" Arçi Braunun (tanınmış müasir Amerika politoloqu) bir ifadəsi yaxşı əks etdirir: "Amerika dövlət kimi özünü yeniləşdirə bilmir!"

İlk baxışdan paradoksal görünən bu tezisin arxasında tarixi faktlar dayanır. A.Braun 2016-cı ildə D.Trampın prezident seçilməsini Amerika cəmiyyətinin əksəriyyəti "güclü lider hakimiyyətə gəldi" kimi qəbul etdiyini yazır. Gözlənilirdi ki, güclü lider cəmiyyəti və dövləti də güclü dərəcədə yeniləşdirəcək. Lakin cəmi 5 il sonra ritorika dəyişdi: 2021-ci ildən başlayaraq, ABŞ cəmiyyəti "Tramp dəlidir" deyiminə üstünlük verdi (və ya elə göründü).

Amerika cəmiyyətində siyasi lider haqqında təsəvvürlərin "güclü obrazından dəli obrazına transformasiyası" onu göstərir ki, Trampın dövləti yeniləşdirmək cəhdi baş tutmamışdır. Əslində, o bunu əsas tezisində ifadə edirdi: "Öncə Amerika!" Yəni "Amerika dünya lideridir" ideyası uğurla "Öncə Amerika!" ideyasına transformasiya olmadı. Bu da uzun illərdir ki, ABŞ-nin dövlət kimi imicini formalaşdıran, onu tarixi edən ideyanın yeni ideyaya keçid edə bilmədiynin göstəricisidir. XIX əsrdən başlayaraq ABŞ prezidentləri müəyyən yeni ideyaları ilə seçiliblər.

## Müxtəlif mərhələlərin prizmasında

XIX əsrin başlanğıcında Tomas Ceferson kilsənin dövlətdən ayrılması ideyasının banilərindən biri sayılır. Bu, ideya ABŞ dövlətçiliyinin sonrakı taleyində təsirli rol oynamışdır.

XIX əsrdə başqa bir ABŞ Prezidenti Ceyms Medison ölkə Konstitusiyası və haqlar haqqında "Bill"in müəlliflərindən olmuşdur. Onun bir məşhur kəlamını Amerikada çox sevirlər: "Bilik həmişə cahillikdən güclü olacaq!"

Yenə XIX əsrdə Ceyms Monro məşhur "Monro doktrinası"nın müəllifidir. Onun bir fikri Amerika cəmiyyətinin ideya anatomiyası sayıla bilər: "Milli ləyaqət ən yüksək milli sərvətdir!"

Prezident Con Adams – XIX əsr: "əgər sizin hərəkətləriniz başqalarını daha çox arzu etməyə, daha çox öyrənməyə, daha çox iş görməyə və ən yaxşı olmağa ruhlandırırsa, onda siz əsl lidersiniz!"

Avraam Lonkoln XIX əsrdə ABŞ Prezidenti, vətəndaş müharibəsini dövlətin xeyrinə bitirən dövlət rəhbəri. Əsas ideyası: "Yeni azadlığın yaranışı!" Bununla A.Linkoln yeni ideyası ilə tarixi liderlik səviyyəsinə yüksəlmişdir.



XIX əsrin sonu XX əsrin başlanğıcında prezident olmuş Uilyam Makkinli yeni ideya vermişdir: "Vətənpərvərlik, təhlükəsizlik və çiçəklənmə!"

XX əsrdə prezident olmuş Teodor Ruzvelt ABŞ üçün tarixi işlər görmüşdür. Başlıca ideyaları: "Hər bir kəs üçün ədalət!" və "Yeni millətçilik!"

XX əsr – Franklin Ruzvelt ABŞ-ni iqtisadi böhrandan çıxaran "yeni kurs siyasəti"nin müəllifi.

Con Kennedi – XX əsrin ikinci yarısı, prezident. "Yeni üfüq" ideyasının müəllifi! 47 yaşında qətlə yetirilmişdir ki, bununla ABŞ üçün "yeni üfüq" də bağlanmışdır.

Riçard Nikson XX əsrin ikinci yarısı, prezident. H.Kissincer onun liderliyini "tarazlıq strategiyası" adlandırmışdır ki, bunu da tarixi hesab edirlər.

Ronald Reyqan ABŞ-ni böhrandan xilas edən prezident. "Amerikada yenidən səhər açıldı" şüarının müəllifi!

Bill Klinton "Amerikanı dəyişmək zamanıdır" və "XXI əsrdə körpü" ideyalarını irəli sürmüşdür. Yəni, B.Klinton inanırdı ki, ABŞ yeniləşməlidir.

XXI əsr kiçik Corc Buş. Əsas ideyası "nəticəverici islahatçı" idi. Yəni B.Klinton kimi kiçik C.Buş da hesab edirdi ki, ABŞ-da total islahatlar aparılmalıdır. Ancaq tarixdə İraq işğal savaşı ilə yadda qaldı.

Barak Obama XXI əsr, prezident. "İrəli" ideyasını irəli sürmüşdü. Bir neçə müharibə aparan və Amerikada səhiyyə sahəsində "Obamacare" adlandırılan islahatlar proqramının müəllifi kimi tanınır.

Donald Tramp "Amerikanı yenidən möhtəşəm edək!" ideyasının müəllifi. Onun "Öncə Amerika!" deyimi çox məşhurdur.

Nəhayət, Co Bayden sonuncu prezident. Əsas ideyası "Amerikanı yenidən dirçəldək". Lakin indi əksəriyyət ABŞ-nin yenidən durğunluğa düşdüyü qənaətindədir.

## Yarımçıq cəhdlər

Bir qədər uzun görünən bu siyahı, əslində, iki əsrdən çox bir müddətdə ABŞ-nin liderlərinin onu yeniləşdirmə cəhdlərinin dinamikasını əks etdirir. Belə görünür ki, müxtəlif ara mərhələdən asılı olmayaraq, hələlik, Amerikada tarixi liderliyin kriteriyaları müəyyən olunmamışdır. Eyni zamanda, dövlət kimi yeniləşmənin ümumi yönünü tapa bilmirlər. Belə olmasaydı, D.Tramp üçün yeniləşmə C.Bayden üçün tənəzzül və bir çox amerikalı üçün "dəli liderin sayıqlamaları" olmazdı.

Bundan sonra ABŞ-də tarixi liderliyin hansı əlamətlər üzrə müəyyən ediləcəyini demək çətindir. Lakin bu təcrübə göstərir ki, müasir mərhələdə dövləti və cəmiyyəti yeniləşdirmək olduqca məsuliyyətli və çətin məsələdir. Burada, yuxarıdakı nümunələr də göstərir ki, dövlət qüdrətli olsa belə, əsas məsələ yeni milli ideyanı milli və dövləti maraqlara uyğun məzmunlaşdırmaqla bağlıdır.

Görünür, burada yeni ideyanı məzmunlaşdıran zaman liderin strateji zəkasının təsir dərəcəsi faktoru ciddi rol oynayır. Bu məsələ üzərində dayanaq.

## Liderin strateji zəkasının təsir dərəcəsi

Özlüyündə bu, hər bir müstəqil dövlət başçısı üçün aktualdır. Heç zaman avtomatik reallaşmır. Bunun üçün xüsusi hazırlıq və fəaliyyət üsulları lazımdır. İlham Əliyev yeni tarixi mərhələ üçün strateji zəkasının təsir dərəcəsini geniş yaya biləcək yanaşmadan uğurla istifadə edir. Onu sübut edən dörd faktın üzərində dayanmaq istərdik.

Birincisi, II Qarabağ savaşı zamanı Azərbaycan həqiqətlərinə dünyanı inandırmaq.

İkincisi, 2020-2024-ci illərdə ictimaiyyətlə dialoq qurmaq. Bunun tərkibində 2024-cü ilin başlanğıcında yerli jurnalistlərlə görüşdə ölkənin aktual problemlərini bəyan etmək.

Üçüncüsü, prezident seçiləndən sonra andiçmə mərasimində yeni tarixi mərhələdə qarşıda duran vəzifələri dəqiq ifadə etmək.

Dördüncüsü, II Şuşa Qlobal Media Forumunda dünya KİV nümayəndələrinə informasiya sahəsində aktual olan poblemləri anlatmaq.

Vurğulanan məqamlar, bütövlükdə, yeni tarixi mərhələ üçün ciddi təsiredici rol oynayan məsələlərin ictimaiyyətə anladılması ilə sıx bağlıdır. Bununla faktiki olaraq dövlət başçısı yeni milli ideyanın zəruriliyini ortaya qoyur. Eyni zamanda, yeni tarixi dövrdə Azərbaycan və dünya üçün aktual olan bir sıra məsələləri izah edir və çıxış yollarını göstərir.

## Zəfər savaşı və Azərbaycan həqiqətlərinin anladılması

Prezident İlham Əliyev mühairbənin gedişində jurnalistlərlə ünsiyyətə ciddi fikir vermişdir. Prezident 44 gün ərzində 30-dan çox müsahibə vermişdir. Onlar xarici jurnalistləri maraqlandıran suallar idi.

Müsahibə zamanı Azərbaycan Prezidentinin müsahibinə hörmətlə yanaşması, fikirlərini aydın və məntiqi ifadə etməsi, hər bir məqamda Azərbaycan həqiqətlərini lakonik və inandırıcı ifadə etməsi və sülh tərəfdarı olduğu qarşı tərəfə tam aydın olmuşdur.

Müsahibələrdə ifadə edilən cavablar o dərəcədə inandırıcı olmuşdur ki, qısa müddətdə onu dinləyənlərin fikri Azərbaycan haqqında kardinal surətdə dəyişmişdir. Bu zaman İlham Əliyev çəkinmədən ölkəyə atılan şər-böhtanlar haqqında açıq danışmışdır. Nəticədə Azərbaycan Prezidenti qlobal miqyasda rəyləri ölkəmizin xeyrinə dəyişə bilmişdir. İnsanlar Azərbaycanın haqq uğrunda, öz müstəqilliyi və ərazi bütövlüyü üçün savaşdığını qəbul etmişlər.

Prezident İlham Əliyevin müsahibələrdə nümayiş etdirdiyi yüksək informasiya ünsiyyəti mədəniyyəti, ədalətliliyi və müstəqil lider olması geniş miqyasda öz təsirini göstərmişdir. Bu hadisə ona görə tarixidir ki, lider 44 günə həm qalibiyyətli müharibə aparmış və həm də çox çətin şərtlər daxilində rəhbəri olduğu dövlətin haqlı davrandığını sübut etmişdir.

Bu cür informasiya savaşı yalnız yüksək zəkaya sahib olanları qələbəyə aparıb çıxara bilir. Müqayisə üçün deyək ki, postsovet məkanında heç bir lider ölkəsinin haqlı olduğunu dünyaya tam sübut edə bilməmişdir. Məsələn, M.Saakaşvili ideya kimi nələrəsə dünyanı inandırdı, lakin praktiki olaraq dəstəyi ala bilmədi. Deməli, inandırma tam olmamışdır.

## Yerli jurnalistlərlə ünsiyyət

Prezident İlham Əliyev 2024-cü ilin yanvarında Azərbaycan televiziya kanallarının jurnalistləri ilə dialoq qurmuşdur. Həmin dialoqda Prezident Azərbaycanın qarşısında duran əsas məsələləri konkret ifadə etmişdir. Məsələn, Prezident bəyan etmişdir ki, yeni tarixi dövr başlayır. Onun təməli II Qarabağ savaşı və ondan əvvəl 1993-2003-cü illərdə Heydər Əliyevin fəaliyyəti mərhələsində qoyulmuşdur. Bu səbəbdən yeni tarixi mərhələni o dövrdə aparılan işlərin təməl təşkil etməsi şərti ilə xarakterizə etmək olar. Bununla bərabər, İlham Əliyev Azərbaycan cəmiyyəti üçün bir neçə baza tezisi də söyləmişdir.

Məsələn, yeni milli ideyanın müəyyən edilməsi, yeni gənc nəslin vətənpərvər ruhda tərbiyəsi, yeni texnologiyaların geniş tətbiqi, ailə sisteminin daha da gücləndirilməsi, ölkənin müdafiə qüdrətinin daim artırılması, xarici siyasətin yeni tarixi mərhələnin özəlliklərinə uyğun inkişaf etdirilməsi, sosial-iqtisadi tərəqqiyə davamlı olaraq istiqamətlənməsi, Türk dünyası ilə əlaqələrin daha da inkişaf etdirilməsi və s.

Onların sistem halında tətbiqi Azərbaycanı dövlət və cəmiyyət olaraq keyfiyyətcə yeni səviyyəyə yüksəltməlidir. Dövlət başçısı yerli jurnalistlərə bu barədə o dərəcədə inandırıcı bəhs etdi ki, dərhal toplum tərəfindən qəbul edildi. Azərbaycan cəmiyyəti kollektiv olaraq bu ideyaları cəmiyyətin yenilənməsinin mənəvi aspektdə aparıcı faktor olaraq görməyə başladı. Onlar bəyan ediləndən cəmiyyətin yeni tarixi mərhələ haqqında təsəvvürlərinin təməlində dayandı. Xüsusilə, yeni milli ideyanın məzmunlaşması məsələsinə cəmiyyət çox həssas yanaşdı. Ziyalılar aktiv surətdə onun müzakirəsinə başladılar. Burada elmi araşdırmalarla konkret tezislərin formalaşdırılması paralel aparıldı.

Deməli, cəmiyyət bütöv kollektiv səviyyəsində Prezidentin ölkənin gələcəyi ilə bağlı irəli sürdüyü əsas tezisləri yeni tarixi dövrün komponentləri olaraq qəbul etmişdir. Bu da Prezidentin strateji zəkasının milli miqyasda təsir dərəcəsinin yüksək olduğunu göstərir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Ermənicə dərs kitablarının adı dəyişə bilər...

## Amma məzmunu əvvəlki kimi qalır

**Məsələn, "Erməni tarixi" bundan sonra "Ermənistan tarixi" olacaq. Amma bu kitabların məzmunu, içində verilən fikirlər və təlqin olunan ideologiya da dəyişəcəkmi? Bunlardan bəhs edən yoxdur. Deməli, kitabların cildi dəyişəcək, içərisi yox. Bu, Paşinyanın özünəməxsus manevridir. Nə "erməni soyqırımı" ideologiyasından, nə "Qərbi Ermənistan" təxribatından, nə də Azərbaycan və Türkiyəyə qarşı məlum erməni ərazi iddialarından imtina edilir. Sadəcə olaraq, siyasi məqsədlərlə bəzi görüntülər verilməkdədir.**

Heç kəsə sirr deyil ki, Azərbaycana və Türkiyəyə qarşı nifrət etmək, xalqlarımıza düşmən gözü ilə baxmaq Ermənistanda məktəb partalarından başlanılır. Yazılan




hər bir dərs kitabında erməni tarixində Türkiyə və Azərbaycanın mənfi rolundan danışılır, bizdən "düşmən" olaraq bəhs edilir. Özü də bu ideoloji müharibə yalnız bu gün aparılmır, hətta sərt sovet qadağaları zamanında belə kitablarda türkə nifrət toxumu səpilmişdir. Uşaqları türklərə nifrət ruhunda böyütmək ermənilərin çoxdankı şakəridir. Rus ordusunun generalı L.Odişelidze ölkə rəhbərliyinə 1915-ci il tarixli raportunda yazırdı: "Ali məktəbdən tutmuş lap adicə ibtidai məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında ifrat dərəcəyə çatdırılmış erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdi. Vətənpərvərlik mədhiyyə və mahnıları, kəskin satira və təmsillər müəllimlər mühitindən yeniyetmələrin odlu qəlbinə düşürdü, onlarda müsəlmanların mənfur hakimiyyətinə qarşı qəzəb, kin-kudirət hissini heç kimə məlum olmayan gələcəyin fantastik illüziyalarının bütöv bir silsiləsini alovlandırırdı. Beləliklə, ən qısa bir vaxt (3-4 il) ərzində onların yaratdığı illüziyanın müdafiəsi üçün qanlı fədakarlığa hazır olan qudurğan, inadkar gənclər yarandı…" Bunları erməni tarixçi Meri Koçar İrəvanda 1988-ci ildə nəşr olunan "Армяно-туретские овщественно-ролитическое отношения и армянский вопрос" adlı kitabında misal gətirir.

8-ci siniflər üçün "Erməni tarixi" kitabının girişində "düşmənin kimliyi" anladılır. Şagird orta məktəbdə artıq bu mübarizənin hədəfinin türklər olduğunu bilir. Kitablarda türklərə qarşı amansız olmuş terrorçular, cəlladlar, qaniçənlər, canilər... bu mübarizənin öndərləridir. Bir yerdə yazılır: "Türkiyə hakimiyyəti erməniləri məhv etməyi hədəf seçmişdi. Xalqımızla diktator davranışı, qəddar təqibləri hamını boğaza yığmışdı. Xalqın içindən çıxmış cəsur övladlarımız Arabo, Agbyur Serob, Hrayr, Gevorq Çavuş, Kerri, Andranik və digər fədakar Haydut mübarizlər həmvətənlərini qorumağa başladılar". Və bu fəaliyyətlərə haqq qazandırılır. Daha sonra bu nifrət hissi başqa şəkildə aşılanır: "Onlar bizi məhv etmək istədilər. Amma biz bu qəhrəmanların sayəsində fəlakətlərdən yaxa qurtardıq, sonra erməni xalqı uğurlar qazandı".

"Uğurlar" baxın nədir? Uğurları erməni quldurların dağlara çəkilib Osmanlı ordusuna arxadan zərbələr vurmaları, "ermənilərə aid" kənd və qəsəbələrin "türklərdən təmizlənməsi", mülki əhalini məscidlərə, kənd evlərinə toplayıb, onların kütləvi şəkildə yandırılması, məhv edilməsidir. Ermənilərin Vanda, Ərzurumda, Qarsda, Gümrüdə, Sərdarabadda , Bakıda, Gəncədə, Təbrizdə, Naxçıvanda etdikləri vəhşiliklər qəhrəmanlıq dastanları kimi qələmə verilməkdədir. 6-cı sinif dərs kitabında belə yazılır: "Bizim qəhrəmanlarımız Andranikdir, Njdedir, Montedir, Vazgen Sarkisyandır, Soğomon Teyliryandır və s. Ermənilər onların sayəsində yaraları sağaltmaqla, gələcəyə baxmaqla, öz müstəqil dövlətçiliyini yaratmaqla öz taleyinin ağasına çevrildi". .



8-ci siniflər üçün "Erməni tarixi" kitabında bir bölüm "Artsaxda azadlıq mübarizəsi" adlanır. Fotodakı Şuşa qalasının bir divarının təsviridir . XVIII əsrin əvvəllərində baş verən hadisələrdən danışılır. XVIII əsrdə Şuşada və başqa ərazilərdə ermənilərin türklərə qarşı apardıqları "azadlıq" mübarizəsindən bəhs edilir. Heç bir mənbə göstərilmədən burada erməni varlığından bəhs edilir. Halbuki o tarixlərdə Qarabağda ermənilər barmaqla sayılacaq qədər az idilər.

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*"XQ"nin Türkiyə müxbiri*

# Dünya Bankı Azərbaycana dəstəyini davam etdirir

## Növbəti əlavə maliyyələşmənin həcmi 150 milyon dollardır

**Azərbaycanın uğurla əməkdaşlıq etdiyi beynəlxalq maliyyə qurumları sırasında Dünya Bankı (DB) xüsusi yer tutur. Respublikamızda bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələri daim yüksək qiymətləndirilir. Bu gün ölkəmizin DB ilə əlaqələrində özəl sektorun diaqnostikası, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı, bərpaolunan enerji və digər sahələrdə əlaqələrin getdikcə möhkəmlənməsi, qabaqcıl beynəlxalq təcrübənin tətbiqinə xüsusi önəm verilməsi daha qabarıq nəzərə çarpır.**




Respublikamızda gerçəkləşdirilən iqtisadi strategiyanın, eləcə də DB ilə əməkdaşlıqda xüsusi önəm verilən layihələrin uğurlu nəticələri qurumun proqnozlarında, hesabatlarında daim yer alır. Xüsusilə bankın hesabatlarında respublikamızın vergi və gömrük strukturlarında mühüm yeniliklərə imza atılması, reallaşdırılan islahatlarda əsas məqsədin sahibkarların vergi yükünün optimallaşması, vergi bazasının genişləndirilməsi, leqallaşma, rəqəmsallaşma və vergi-gömrük administrasiyası ilə sahibkarların münasibətlərinin daha da sivil səviyyəyə qaldırılması kimi məsələlər yüksək qiymətləndirilir.

DB-nin İcraçı Direktorlar Şurası Azərbaycanda hazırda icra olunan Məşğulluğa Dəstək Layihəsini (AMDL) genişləndirmək üçün 150 milyon ABŞ dolları məbləğində əlavə maliyyələşdirməni təsdiqləyib. DB-nin bu barədə məlumatında bildirilib ki, layihənin məqsədinin məcburi köçkünlər, qadınlar, gənclər və uzunmüddətli işsizlərə xüsusi diqqət yetirməklə əhalinin ən həssas qrupları üçün özünüməşğulluq imkanlarını təşviq etməkdir.

Qeyd edilib ki, son 3 il ərzində 5 mindən çoxu qadın olmaqla 15 min benefisiar öz bizneslərinə başlamaq üçün alət dəstləri alıb. Benefisiarların qiymətləndirilməsinə əsasən, AMDL iştirakçılarının 70 faizdən çoxu layihə tərəfindən təmin edilən vəsaitləri aldıqdan sonra artıq iki ildir ki, bizneslərini davam etdirir. Bu uğura əsaslanaraq, hazırda təsdiqlənən maliyyələşdirmə mövcud məşğulluq proqramlarını və xidmətlərini genişləndirəcək və daha çox insana xidmət göstərmək və AMDL çərçivəsində biznesin davamlılığını təşviq etmək üçün başqa mexanizmləri hazırlayacaq və sınaqdan keçirəcək.

"Azərbaycan həssas qruplar üçün əmək bazarının nəticələrini yaxşılaşdırmaq üçün səylər göstərir. Bununla belə, bacarıq uyğunsuzluğu, yüksək qeyri-formallıq və qadınlar arasında yüksək işsizlik kimi problemlər hələ də qalmaqdadır", – Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Şteffi Ştallmeister bildirib. Ş.Ştallmeisterin sözlərinə görə, bu layihə ölkədə daha inklüziv, özəl sektorun aparıcı rol oynadığı iqtisadi artımı gerçəkləşdirmək üçün mövcud problemlərin həllinə kömək edir.

Əlavə maliyyələşdirmə iqtisadi fəaliyyətin şaxələndirilməsinin və şoklara qarşı dayanıqlılığın təşviqini reallaşdırmaqla istehsal və xidmətlər kimi yeni sektorları əhatə edəcək, respublikamızın özünüməşğulluq proqramına əhəmiyyətli töhfə verəcək. Bundan başqa, bu maliyyələşdirmə benefisiarların bizneslərini genişləndirmək üçün nağd vəsaitlərdən istifadə etməyə şərait yaradan qrantlar mexanizmini sınaqdan keçirməyə müsbət təsir göstərəcək.

AMDL üçün əlavə maliyyələşdirmə həm də Azərbaycan Dövlət Məşğulluq Agentliyinin iş axtaranlar üçün xidmət və proqramlarının çeşidini genişləndirmək imkanı yaradacaq. Bu yeni dəstək vasitəsilə adıçəkilən agentlik iş yerində təlim, əmək haqqı subsidiyaları, şagirdlik proqramı, peşə hazırlığının inkişafı və seçilmiş peşələr üzrə sertifikatlaşdırma xərclərinin kompensasiya edilməsi kimi əlavə aktiv əmək bazarı tədbirlərini reallaşdıracaq. Bu proqramların işaxtaranların, o cümlədən qadınların və digər həssas əhali qruplarının məşğulluğunu stimullaşdıracaq, onların istehsal və xidmət sahələrində işləmək imkanlarını artıracaq.

Layihəni hazırlayan DB komandasının rəhbəri Mirey Ovadiya bildirib ki, bu yeni maliyyələşdirmə ilə bacarıqların inkişafı, eləcə də işaxtaranlar və işəgötürənlər üçün stimulların dəstəklənməsi üçün aktiv əmək bazarı tədbirlərinin həyat qabiliyyəti yoxlanılacaq. Belə bir yanaşma ilə Azərbaycanda gələcək üçün daha məhsuldar və davamlı iş yerləri yaradılacaq.

DB-nin ölkəmizdə yeni maliyyələşdirilməsi AMDL-in insan kapitalı potensialının artırılması, habelə məşğulluq xidmətlərinin effektivliyinin gücləndirilməsi, bacarıqların inkişaf etdirilməsi və inklüzivlik kimi əsas inkişaf prioritetlərinin həyata keçirilməsinə töhfə verəcəyi gözlənilir. Bundan əlavə, layihə həm də DB Qrupunun Azərbaycan hökuməti ilə hazırda müzakirə olunan Azərbaycan üzrə Ölkə Tərəfdaşlıq Çərçivəsində (2025–29-cu illər) vurğulanan daha məhsuldar və inklüziv iş yerlərinin təşviqi məqsədinə uyğundur.

DB-nin Azərbaycan üzrə ölkə meneceri S.Stallmeister qeyd edib ki, Azərbaycan həssas qruplar üçün əmək bazarını yaxşılaşdırmaq üçün səylər göstərir: "Ancaq uyğunsuzluqlar, yüksək qeyri-rəsmi məşğulluq və qadınlar arasında yüksək işsizlik kimi problemlər hələ də qalmaqdadır. Bu layihə ölkədə daha inklüziv, özəl sektorun liderlik etdiyi iqtisadi artımı gerçəkləşdirmək üçün əsas olan bu problemlərin həllinə kömək edir".

Əlavə maliyyələşdirmə Azərbaycanın özünüməşğulluq proqramını istehsal və xidmət kimi yeni sektorlara genişləndirməklə iqtisadi fəaliyyətin şaxələndirilməsini və şoklara qarşı dayanıqlılığı təşviq etməklə dəstəkləməyə davam edəcək. Bundan əlavə, bu maliyyələşdirmə benefisiarlara öz bizneslərini genişləndirmək üçün vəsaitlərdən istifadə etməyə imkan verəcək təkmilləşdirilmiş nağd pul əsaslı qrant sxemini sınaqdan keçirmək imkanı yaradacaq.

AESP-nin insan kapitalı potensialının yüksəldilməsi, eləcə də məşğulluq xidmətlərinin, bacarıqların artırılması və inklüzivliyin səmərəliliyinə nail olunması kimi Azərbaycanın əsas inkişaf prioritetlərinin irəliləməsinə töhfə verəcəyi gözlənilir. Bundan əlavə layihə, həmçinin Azərbaycan hökuməti ilə müzakirə olunan DB Qrupunun Azərbaycan üçün Ölkə Tərəfdaşlıq Çərçivəsində (2025–2029-cü illər) vurğulanan daha məhsuldar və inklüziv iş yerlərinin təşviqi məqsədi ilə uzlaşır.

Qeyd edək ki, Azərbaycan 1992-ci ildən DB-nin üzvüdür. İndiyədək Azərbaycanda bankın kredit vəsaitləri hesabına ümumi məbləği 4,4 milyard ABŞ dolları olan 60-a yaxın layihə həyata keçirilib. Ötən müddətdə bank tərəfindən ölkəmizdə reallaşdırılan 100-dən artıq texniki yardım və bir çox istiqamətlərdə qrant layihələrinə, təxminən, 30 milyon dollardan artıq vəsait ayrılıb. Azərbaycanın uğurlu tərəfdaşlarından olan DB-nin maliyyə dəstəyi ilə nəqliyyat, sosial, su təchizatı və irriqasiya, kənd təsərrüfatı, ətraf mühit, ədliyyə və digər sahələrdə həyata keçirilən layihələr ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələr verib.

# 2025-ci ildə ölkəmizdə iqtisadi artım 2-2,5 faiz təşkil edəcək




**Dünən Azərbaycan Mərkəzi Bankında faiz dəhlizinin parametrləri ilə bağlı mətbuat konfransı keçirilib. Bankın İdarə Heyətinin sədri Taleh Kazımov bildirib ki, 2024-cü ilin iyul ayının yenilənmiş proqnozlarına görə, Azərbaycanda ümumi daxili məhsul (ÜDM) istehsalının 3,5-4 faiz, qeyri neft ÜDM-in isə 5,5-6 faiz artacağı gözlənilir. İyul ayının proqnozlarının aprel ayının proqnozları ilə müqayisədə dəyişmədiyini diqqətə çatdıran T. Kazımovun sözlərinə görə, 2025-ci ilə ölkəmizdə iqtisadi artım 2-2,5 faiz intervalında, qeyri-neft sektorunda iqtisadi artım isə 4-5 faiz intervalında olacaq.**

Mövcud monetar şərtlərin inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşdirilməsinə yönəldiyini bildirən bank sədri deyib ki, yenilənmiş proqnozlara görə, hazırkı şərtlərin dəyişməz qalacağı təqdirdə baza ssenari üzrə inflyasiyanın 2024-cü ildə 5,4 faiz, 2025-ci illdə isə 5,5 faiz olacağı gözlənilir. Onun sözlərinə görə, inflyasiya proqnozunun artırılma istiqamətində dəyişdirilməsi, əsasən, manatın nominal effektiv məzənnəsinin daha aşağı templə möhkəmlənməsi gözləntisi, eləcə də qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin qiymət və tariflərində edilən dəyişikliklərlə bağlıdır. "Tənzimlənən qiymətlərdə artımın inflyasiya proqnozuna birbaşa və dolayı artırıcı təsiri 1,5 faiz bəndi gözlənilir ki, bunun da 1 faiz bəndi 2024-cü ildə reallaşa bilər. Uçot dərəcəsinin dəyişməz saxlanılması və ya artırılması ilə bağlı növbəti qərarlar faktiki inflyasiya və proqnozu, xarici və daxili risk amillərinin dinamikasından asılı olacaq", – deyə o əlavə edib.

2024-cü il üçün Azərbaycan neftinin orta qiymətinin 84,9 dollar, qazın 1000 kubmetrinin isə 296,1 dollar səviyyəsində proqnozlaşdırıldığını xatırladan Mərkəzi Bankın sədri qeyd edib ki, növbəti ildə bu rəqəmlərin müvafiq olaraq 83,8 dollar və 332,5 dollar olacağı nəzərdə tutulur. Azərbaycanda tənzimlənən qiymətlərdə artımın inflyasiya proqnozuna birbaşa və dolayı artırıcı təsiri 1,5 faiz bəndi gözlənilir ki, bunun da 1 faiz bəndi 2024-cü ildə reallaşa bilər.

Taleh Kazımov, həmçinin deyib ki, Azərbaycan Mərkəzi Bankı baza ssenari əsasında cari əməliyyatlar balansının (CƏB) profisiti ilə bağlı bu ilin aprel ayında verdiyi proqnozu dəyişməyib. Onun sözlərinə görə, 3 ay əvvəl olduğu kimi, 2024-cü ildə CƏB üzrə 7 milyard ABŞ dolları, 2025-ci ildə isə 6 milyard ABŞ dolları profisit gözlənilir. Azərbaycan Mərkəzi Bankının keçirdiyi valyuta hərracları ilə bağlı jurnalistlərə məlumat verən bank sədri bildirib ki, bu sahədə tələbatın iki dəfədən çox artması, əsasən, dövlət büdcəsindən xərcləmələrlə bağlıdır. Qeyd olunub ki, cari ilin əvvəlindən təkcə yerli şirkətlər və fərdi sahibkarlar xarici tərəfdaşlarına olan borclarını bağlamaq üçün 800 milyon ABŞ dolları ödəniş ediblər. Eyni zamanda, dövlət xarici borcu ilə bağlı 1 milyard manatdan çox ödəniş edib. Bütün bunlar isə valyuta hərraclarında satışın artmasına təsir göstərir.

Mətbuat konfransında Azərbaycanda bəzi kreditlərin faizinin artması məsələsinə də aydınlıq gətirilib. Bunun məcburi ehtiyat normalarının artırılması ilə bağlı olmadığını diqqətə çatdıran T. Kazımov deyib ki, əsas səbəb profisitli büdcə fonunda hökumət hesablarında likvidliyin artmasıdır. "Bu da likvidliyə azaldıcı təsir edib. Bu səbəbdən biz sterilizaiya əməliyyatlarımızın həcmini azaltmışıq ki, bazar tarazlaşsın. Növbəti aylarda da məcburi ehtiyat normalarının faiz dərəcələrinə təsirini gözləmirik. Əksinə, düşünürük ki, büdcə xərcləri icra edildikcə 3-4-cü rübdə likvidlik artacaq. Ehtimal var ki, yenidən sterilizasiya əməliyyatlarının həcmini artıraq", – deyə o qeyd edib. Onun sözlərinə görə, yeni verilmiş kreditlər üzrə orta faiz həm fiziki, həm də hüquqi şəxslər daxil olmaqla 2023-cü ilin dekabrında 15,3 faiz, cari ilin iyununda isə 15 faiz təşkil edib.

Həm dövlət xərclərinin, həm də tənzimlənən xərclərin inflyasiyaya təsirinin 2024-cü ilin və 2025-ci ilin sonuna kimi qiymətləndirildiyini diqqətə çatdıran bank rəhbərinin sözlərinə görə, proqnozlarda dəyişiklik olmasa, Mərkəzi Bankın faiz və pul siyasəti ilə qərararları sabit qalacaq, hər hansı makroiqtisadi çağırışlar olmadığı halda pul siyasəti sərtləşdirilməyəcək.

Azərbaycan Mərkəzi Bankının baş direktoru Şahin Mahmudzadə isə ölkəmizin dünyanı birləşdirəcək "yaşıl taksanomiya" hazırlamaq niyyətində olduğunu bildirib. Hazırda 50-yə yaxın ölkənin "yaşıl" istiqrazlar və kreditlərlə bağlı taksanomiyası olduğunu diqqətə çatdıran baş direktor deyib ki, bununla belə, həmin taksanomiyalar arasında əlaqələr kifayət qədər deyil, onlar daha pərakəndədir. "Buradan da bizdə belə bir ideya yarandı ki, bütün ölkələri birləşdirəcək taksanomiya prinsiplərinin hazırlanmasında Azərbaycan təşəbbüskar kimi çıxış eləsin və dünyaya töhfə versin. Hazırda iki beynəlxalq qurumla bu istiqamətdə iş gedir. Bu taksanomiyanı da COP-da təqdim etməyi planlaşdırırıq", – deyə o qeyd edib.

Yeri gəlmişkən, Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 7,25 faiz, faiz dəhlizinin aşağı həddinin 6,25 faiz, faiz dəhlizinin yuxarı həddinin isə 8,25 faiz səviyyəsində dəyişməz saxlanılması barədə qərar qəbul edib. Qərar 2024-cü il avqustun 1-dən ən qüvvəyə minir. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat ictimaiyyətə 2024-cü il sentyabr ayının 18-də açıqlanacaq.

## Dəniz nəqliyyatı ilə yük daşımaları 21 faizə yaxın artıb

**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin ilk yarısında Azərbaycanda dəniz nəqliyyatı ilə 1 milyon 121 min 283 ABŞ dolları dəyərində 1 milyon 435 min 665 ton yük daşınıb. Bu, 2023-cü ilin eyni dövrünə nisbətən müvafiq olaraq 20,5 faiz və 0,03 faiz çoxdur.**



6 ayda dəniz nəqliyyatı ilə ixrac olunan yüklərin həcmi 41 min 626 ton (əvvəlki ilin analoji dövrü ilə müqayisədə 8,4 faiz çox), dəyəri 63 milyon 24 min ABŞ dolları (31,7 faiz az) olub. İdxal olunan yüklərin həcmi 1 milyon 394 min 39 ton (0,1 faiz az), dəyəri 1 milyon 58 min 259 ABŞ dolları (24,9 faiz çox) təşkil edib.

## "Atlet-8" kran gəmisi əsaslı təmir olunub

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasına məxsus uzunluğu 65, eni 15 metr olan "Atlet-8" kran gəmisinin əsaslı təmiri yekunlaşıb.**



ASCO-dan aldığımız məlumata əsasən, təmir prosesi "Bibiheybət" Gəmi Təmiri Zavodunda yerinə yetirilib. Təmir müddətində 40 ton yükqaldırma qabiliyyətinə malik olan kranın, baş və köməkçi mühərriklərin, nasosların, boru sistemlərinin əsaslı təmir işləri aparılıb.

"Gəminin yaşayış otaqları, sanitar qovşaqlar və yeməkxana təmir olunub. Tərsanəyə qaldırılan gəminin sualtı və suüstü hissələrinin təmizlənməsi, rənglənməsi, hərəkət-sükan kompleksinin, dib-yan armaturlarının, protektor qurğularının təmiri, gəminin üzməsinə təhlükə yaradan gövdənin sualtı və suüstü hissəsində zədələnən sahələrin dəyişdirilməsi işləri yerinə yetirilib, – məlumatda deyilib.

İşlər başa çatdırıldıqdan sonra gəminin 40 tonluq yükqaldırma qabiliyyətinə malik kran qurğusunun sınaq işləri aparılıb və test uğurla yekunlaşdırılıb. Bundan sonra mexanizm və elektrik avadanlıqlarının hərəkətdə yoxlanılması məqsədilə gəmi dəniz sınağına çıxarılıb. Müvəffəqiyyətlə başa çatan dəniz sınaq işlərindən sonra gəmi registr təsnifatı nümayəndələrinə təhvil verilib.

## Bu il ölkəmizdə enerji anbarının əsasının qoyulması planlaşdırılır

**Azərbaycan 2027-ciilədək mərhələli şəkildə "yaşıl enerji" üçün 250 meqavat gücündə anbar hazırlamağı planlaşdırır.**

Azərbaycan Respublikası energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov bunu jurnalistlərə açıqlamasında bildirib.

"2027-ci ilə qədər bərpaolunan enerji mənbələrindən 2 qiqavatt "yaşıl enerji" istehsal etməyi planlaşdırırıq. Bu həcm üçün Azərbaycana 250 meqavatlıq enerji anbarı lazımdır. Bu anbarı 2024-cü ildən başlayaraq mərhələli şəkildə yaradacağıq", – E.Soltanov deyib.

Nazir müavini qeyd edib ki, 2024-cü ildə Azərbaycan xarici tərəfdaşların dəstəyi ilə ilk 50 meqavat "yaşıl enerji"ni saxlamaq üçün şərait yaratmağı planlaşdırır. Yerdə qalan 200 meqavatın yaradılmasının təfərrüatı sonra, lazım olduqca açıqlanacaq", – deyə E.Soltanov əlavə edib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# Meşələr təngiyən dünyamızın xilas pəncərəsidir

**Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetlərindən biri olan “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” öhdəliyinə uyğun olaraq hazırda ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər görülür. Ekoloji problemlər kompleks həll edilir. Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə təsir göstərə bilən risklərin azaldılması məqsədlə yaşıllıqların payı artırılır.**



COP29 çərçivəsində də biomüxtəlifliyin qorunması və iqlim dəyişikliyi ilə mübarizə mühüm əhəmiyyət kəsb edir. Çünki meşəsizləşmə, bioloji müxtəliflik və iqlim dəyişikliyi arasında sıx əlaqə var. İqlim dəyişikliyi növlərin miqrasiyasına və ekosistemlərin tarazlığının pozulmasına səbəb olur. Məsələn, artan temperatur və quraqlıq bəzi bitki növlərinin yaşayış yerlərini



itirməsinə və nəsli kəsilmək təhlükəsi ilə üzləşməsinə səbəb olur. Bu barədə Azərbaycan Texniki Universitetinin kimya texnologiya, təkrar emal və ekologiya kafedrasının dosenti Nəcibə Şirinova ilə söhbət etdik.

***–İqlim dəyişikliyində meşələrin rolunu necə qiymətləndirirsiniz?***

– Antropogen mənşəli qlobal istiləşmə konsepsiyası şəklində formalaşan iqlim dəyişmələri hazırda kəskin geosiyası məsələyə çevrilib. Havanın Yer səthinə yaxın orta qlobal temperaturunun son 100 il ərzində təxminən 0,5 – 0,6 0C, karbon qazının ($CO_2$) isə təqribən 30 faiz artması müşahidə edilib. Qlobal istiləşmə bəşəriyyətin rast gəldiyi ən böyük təhlükədir. Yüz Nobel mükafatı laureatı bu yaxınlarda bunu əks etdirən bəyanat imzalayıb. Bu bəyanatı BMT-nin müvafiq komitəsi də dəstəkləyib. Dünya dövlətləri hökumətləri tərəfindən də razılıqla qarşılanıb.

Sənayeləşmə və fosil (kömür, neft, qaz) yanacaqlardan istifadə atmosferdə normadan artıq karbon qazının yığılmasına səbəb olur. “İstixana effekti” əsasən $CO_2$-nin təsirindən əmələ gəlir. Daş kömür, neft, qaz və s. yanacaqların yandırılması nəticəsində ildə atmosferə 20 milyard ton karbon qazı qarışır. Hər il atmosferə qarışan $CO_2$-nin miqdarı 0,5 faiz, metan 0,9 faiz, azot oksidləri 0,25 faiz, hallogenlərin karbon birləşmələri isə 4 faiz artır.

Məlumdur ki, yer üzərinə düşən günəş şüalarının bir qismi sınaraq geri qayıdır. Bu qazlar Yer kürəsi ətrafında “ekran” yaradaraq yerdən qayıdan günəş şüalarının qarşısını alır. Bu isə atmosferdə “istixana effekti” yaradır. Bu, qlobal iqlim dəyişikliyi ilə özünü göstərir və canlıları təhdid edir.

Problemin həlli üçün həm fərdi, həm də institusional səviyyədə kompleks tədbir görülməlidir. BMT-nin 2001-ci ildə nəşr olunan hesabatında göstərilib ki, yaxın gələcəkdə planetimizdə orta temperaturun 1,4-5,80 dərəcə artması proqnozlaşdırılır. Kosmosdan çəkilmiş şəkillər vasitəsilə müəyyənləşdirilib ki, qumlu səhralar savanna zonasına doğru 200 kilometrə qədər genişlənib. Son proqnozlara əsasən, XXI əsrin ortalarında okean suyunun səviyyəsinin 0,5-1 metr, sonunda isə 2 metr qalxması qurunun bir hissəsinin su altında qalması ilə nəticələnə bilər.

Atmosferdə həddindən artıq toplanan karbon qazının azaldılmasının ən təsirli yollarından biri meşələrin çoxaldılması və qorunmasıdır. Meşələr ildə 2 milyard tona qədər karbon qazını udur və Günəş enerjisindən istifadə etməklə kimyəvi çevrilmə (fotosintez) yolu ilə müxtəlif üzvi maddələr şəklində saxlayır. Bu proses nəticəsində atmosferə oksigen qazı buraxılır.

Beləliklə, meşələrin təbiətdə ən böyük rolu hər hektarın il ərzində 10-20 ton karbon qazını udaraq əvəzində oksigen ixrac etməsidir. Onlar havanı tozdan qoruyur, avtomobil və sənaye müəssisələrinin buraxdığı zərərli maddələri təmizləyərək güclü filtr rolunu oynayır. Nəticədə meşələr karbon qazını udaraq iqlimi tənzimləyir.

***– Meşələr həm də güclü istixana effektinə malik metanı da tutur. Bu barədə isə az danışılır...***

– Meşələr təkcə fotosintez vasitəsilə havadan karbon qazını udmaqla qlobal istiləşmənin qarşısını almır. Ağacların qabıqları metanı da tutur. Metan güclü istixana effekti nə malikdir. Onun emissiyaları bəşəriyyətin bu gün üzləşdiyi qlobal istiləşmənin 30 faizinə qədərini təşkil edir. Ağac qabığındakı mikrobların torpaq bakteriyaları kimi metanı udması meşələri iqlim üçün əvvəllər düşünüldüyündən 10 faiz daha qiymətli edir.

***– Planetin yaşıl örtüyü həm də davamlı landşaftlar yaratmaqla iqlim dəyişikliyinin təsirlərinin yumşaldılmasına mühüm təsir göstərir.***

– Bəli. Planetin yaşıl örtüyü təkcə istixana qazlarını udmaqla deyil, həm də daha davamlı landşaftlar yaratmaqla iqlim dəyişikliyinin təsirlərinin yumşaldılmasında önəmli rol oynayır. Torpaq sürüşmələrinin qarşısının alınmasında, dağ yamaclarının və qumluqların bərkidilməsində, sellərin qarşısının alınmasında, tarlaların küləkdən və quraqlıqdan qorunmasında müstəsna əhəmiyyəti var. Meşələr sahillərin yuyulub getməsinin də qarşısını alır.

Meşələr həm də ölkə iqtisadiyyatı üçün xammal mənbəyidir, turizm sektorunun inkişafına böyük töhfə verir. Bir sözlə, meşələr hər bir ölkədə iqtisadiyyatın inkişaf etdirilməsində, ətraf mühitin yaxşılaşdırılmasında, xalqın rifahının yüksəldilməsində mühüm rol oynayan təbii ehtiyatlar kompleksidir.

Bunları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, meşələrin qırılması-meşəsizləşdirmə karbon və metan qazlarının udulma kanallarının itməsinə, enerji, su, qlobal bioloji tsiklin biogen elementlərinin dövranının dəyişməsinə səbəb olur, atmosferin kimyəvi tərkibinə təsir göstərir. Meşəsizləşdirmə, eyni zamanda, lokal, regional və qlobal səviyyələrdə iqlim şəraitinin kəsgin dəyişməsini şərtləndirir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İqlim sammitində uğurlu nəticələr əldə ediləcək

**COP29-da iqlim maliyyəsinin həlli istiqamətində müsbət addımlar atılacaq, yekdil qərarlar qəbul ediləcək.**

Bu barədə BMT-nin Baş katibinin köməkçisi, təşkilatın siyasət üzrə iş və proqram dəstəyi bürosunun direktoru Markos Neto “X” sosial media hesabında paylaşım edib.

“Biz 100 milyard dollarlıq bir dünyada yaşayırıq. Təəssüf ki, bu vəsait şimaldan cənuba kimi çatmır. İndi iqlim maliyyəsinin məqsədini müəyyənləşdirmək üçün başqa bir yol tapmalıyıq. Bu, asan olmayacaq. “Yaşıl keçid” trilyonlarla dollara başa gələcək. Bu səbəbdən həqiqət budur ki, noyabrda Bakıda razılaşdırılmalı olan, maliyyə ambisiyalarını təyin edən sistemə ehtiyacımız var. Buna görə də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) belə bir məsələdə Azərbaycan hökumətinə dəstək olur və beynəlxalq ictimaiyyətin də belə bir təşəbbüsə qoşulmasını arzulayır”,– deyə M.Neto bildirib.



Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28 plenar iclasında qəbul edilib. İki həftə ərzində dünyanın mərkəzinə çevrilən Bakı 70-80 minə yaxın xarici qonaq qəbul edəcək.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Yer Sammitində insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq üçün imzalanmış sazişdir.

# “COP29 QHT Koalisiyası”nın sıraları genişlənir

**“COP29 QHT Koalisiyası”nın “Zoom” vasitəsilə ikinci hibrid görüşü keçirilib. Tədbirdə inklüzivlik mövzusunda xarici və yerli vətəndaş cəmiyyəti təmsilçiləri geniş müzakirələr aparıb.**




Görüşə Azərbaycan Milli QHT Forumunun dəvəti ilə COP29-da BMT-nin İqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai və COP29-un gənc iqlim çempionu Leyla Həsənova qonaqlar qismində qatılıblar. Təmsilçilərimiz onlara ünvanlanan sualları cavablandırıblar.

Qeyd edək ki, bugünlərdə “COP29 QHT Koalisiyası”na daha 9 ölkədən 15 xarici QHT qoşulub. Hazırda “COP29 QHT Koalisiyası”nda 39 ölkədən 123 xarici QHT təmsil olunur. Azərbaycan QHT-lərini isə koalisiyada milli çətir təşkilat olan Azərbaycan Milli QHT Forumu təmsil edir.

Forumun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, son günlər Norveç, İspaniya, Rumıniya, Şri-Lanka və digər ölkələrdən də xarici QHT-lər Koalisiyaya qoşulub. Hazırda müraciətlərin davam etdiyini bildirən R. İskəndərli “COP29 QHT Koalisiyası”nı çox unikal bir platforma kimi dəyərləndirib. Onun sözlərinə görə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında müşahidəçi statusa malik QHT-lərin birləşdiyi 9 həmfikir qrupdan olan 39 QHT də sözügedən koalisiyada təmsil olunur.

# Dayanıqlı “yaşıl tikinti” ilə bağlı hesabat hazırlanacaq



**İqlim Çempionları Komandasının baş məsləhətçisi Alida Saleh COP29-a hazırlıq çərçivəsində keçirilən dəyirmi masada iqlim dəyişikliyinin qarşıda duran ən mühüm məsələlərdən biri olduğunu, bu istiqamətdə beynəlxalq qurumların qabaqcıl təcrübələrinin dərindən öyrənildiyini bildirib. A.Saleh daha sonra iqlimin təsirlərinin hazırda da müşahidə edildiyini vurğulayıb: “Bu məsələdə vacib məqamlardan biri budur ki, istilik emissiyalarını yaradan amilləri aradan qaldıraq və enerji səmərəliliyini yüksəldək. Belə bir prosesdə ədalətli keçid olmalıdır. Tikinti sektorunun ətraf mühitə böyük təsiri var. Belə ki, binalar emissiyaların 20 faizini, eyni zamanda, enerji təchizatının 40 faizini təşkil edir. Biz elə dayanıqlı həllərə baxmalıyıq ki, ətraf mühitə xeyirli olsun”.**

Baş məsləhətçinin sözlərinə görə, respublikamızda hazırda elə yeni memarlıq layihələri var ki, yaxşı mənada insanlar heyrətləndirir. Eyni zamanda, hökumətin özəl sektora da ehtiyacı var. Özəl sektorun ambisiyası və baxışı dövlətlə üst-üstə düşür. Azərbaycanda dayanıqlı “yaşıl tikinti” ilə bağlı hesabat hazırlanacaq və bu, COP29-dan sonra da davam edəcək.

# Ağdamda elektromobillər üçün enerjidoldurma cihazları istehsal olunacaq

**Ağdam Sənaye Parkının rezidenti “Eel Electric” MMC tərəfindən Azərbaycanda ilk dəfə olaraq elektrikli avtomobillər üçün şarj (enerjidoldurma) cihazlarının istehsalı nəzərdə tutulur.**




Ötən müddətdə şirkətin elektrik paylayıcı avadanlıqların və elektrik yuvalarının istehsalı müəssisəsində görülən işlərin 85 faizi yekunlaşıb. Artıq Türkiyə və Avropanın qabaqcıl ölkələrindən avadanlıqlar gətirilib, yaxın vaxtlarda onların quraşdırılmasına başlanılacaq. Müəssisədə 35-10 kV daxili və xarici tip paylayıcı qurğular, 0,4 kV güc və idarəetmə panelləri, kondensator qurğuları, müxtəlif güclərdə transformator məntəqələrinin istehsalı həyata keçiriləcək.

Qeyd edək ki, Ağdam Sənaye Parkının 1,7 hektar ərazisində inşa edilən müəssisədə 70 nəfər daimi işlə təmin ediləcək. İstehsal olunan məhsulların, əsasən, Qarabağda aparılan tikinti-quraşdırma işlərində geniş istifadə edilməsi planlaşdırılır.

# Qərbi Azərbaycana qayıdışın yolu

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə baş tutan, bu il iyun ayının 21-də başlayan və üç gün davam edən "Qərbi Azərbaycana qayıdış" festival-konqres artıq tarixə dönüb. İnanırıq ki, bu möhtəşəm tədbirin ideya müəllifi, onun təşkilatçıları, ümumiyyətlə, ölkəmizin elmi və siyasi ictimaiyyətində baş tutan hadisədə iştirak edən hər kəsin əməyi həmin tarixin ayrılmaz tərkib hissəsi kimi qalacaq. Bu, gəlişən və gəlişdikcə öz haqlarının tam, dayanıqlı qələbəyə qədər qəbul edilməsi, maddi-mənəvi itkilərinin bərpası uğrundakı yoldur. O yol milli iradənin ali forması olaraq öz dövlətinin ətrafında birliyinin növbəti mərhələsi kimi da tarixdə qalacaq.**



Bu mərhələyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının yeni inzibati binasında ziyalılarla görüşündə start verilib. Həmin görüşdə Prezident İlham Əliyev 34 il əvvəl Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın tarixi vətənlərindən qeyri-insani basqılar – fiziki şiddət və ölüm təhdidləri ilə çıxarılmasından, soydaşlarımızın beynəlxalq hüququn imkan verdiyi qaydalarla qayıtmaq şəraitinin yetişməsi barədə danışdı. Bu gün regional siyasətdə söz sahibi olan Prezident İlham Əliyev ziyalıların şəxsində 34 ildir tarixi vətənlərindən ayrılan soydaşlarımıza üz tuturdu: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var və onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, o cümlədən, tarixi xəritələr, bizim tariximiz təsdiqləyir".

"Qərbi Azərbaycana qayıdış" festival-konqresin davam etdiyi 3 günü məhz o tarixi illərə dönmək, ancaq sənəd və xəritələrin təqdimatı deyil, o ərazilərdə yaşadıqları min illərdə formalaşan, elə mənəvi irs kimi də nəsildən nəsillərə keçərək günümüzə qədər yaşayan adət-ənənələrimiz, ayrı-ayrı cəfakeş insanların səyi ilə erməni millətindən olan etnocinayətkarlığın qurbanı olmaqdan xilas edilmiş eksponatlar nümayiş olundu. Təşkilati işlərdə çiyinlərinə olduqca çox böyük yük götürmüş Naxçıvan Dövlət Universiteti kollektivinin və bu kollektivin rəhbəri Elbrus İsayevin xidmətlərini qeyd edərək xatırladaq ki, festival-konqresin yüksək səviyyədə keçməsində onların rolu əvəzsiz oldu. 2023-cü ilin 23–24 noyabr tarixlərində "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı festival-konqresdə əldə olunan təcrübənin öz sözünü dediyi isə hiss olunurdu.

Müzəffər Silahlı Qüvvələrimizin öz Ali Baş Komandanının rəhbərliyi ilə Zəfərlə tamamlanan 44 günlük Vətən müharibəsinin nəticələrindən biri Zəngəzur dəhlizindən keçməklə ölkəmizin tarixi parçası Naxçıvanla birləşən yolun açılması haqqında düşmən ölkənin imzaladığı sənəd oldu. Söhbət o Zəngəzurdan gedir ki, Azərbaycan xalqının etnogenezinin və milli dövlətçiliyimizin formalaşmasında həlledici yer tutan mahallarımızdan biri kimi xalqımızın tarixində müstəsna yeri var. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağlarına sığınan Zəngəzur ərəb istilasına qarşı davam edən bir qərinəlik mübarizənin əsas meydanı kimi də məşhurdur. Tarixin maraqlı faktlarındandır ki, burada 150 il davam edən səlcuqlu hökmranlığı türk-islam nüfuzunun dominantlığını bərqərar edib. Azərbaycan və onun ayrılmaz hissəsi olan Zəngəzur mahalının keçdiyi yolların müəyyən məqamlarına İstanbuldakı Topqapı sarayı muzeyinin kitabxanasında Zəngəzur, Naxçıvan, İrəvanla bağlı müfəssəl məlumatların yer aldığı 48 səhifəlik "Rəvan mühasirəsi tarixçəsi" və "Mühimmə dəftəri" işıq salır. 1914–1920-ci illərdə ermənilərin törətdiyi qırğınlar və Zəngəzur mahalındakı 115 müsəlman kəndinin yer üzündən silinməsi, 4472 qadın və uşağın qətlə yetirilməsi isə faciəli tarixi faktlardandır.

1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan ediləndən bir gün sonra, noyabr ayının 30-da bolşevik Rusiyasının iradəsi ilə Azərbaycan K/b/P MK Siyasi və Təşkilat büroları Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.637 kv. verstlik hissəsinin sovet Ermənistanına verilməsi haqqında qərar qəbul etdi. Qərbi Azərbaycan ziyalıları ilə görüşündə o faktı xatırladan Prezident İlham Əliyev bu qərarın siyasi perspektivlərini, onun xalqımızın gələcək taleyində oynayacağı rol barədə bunları deyirdi: "1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi".

Buna görədir ki, "Qərbi Azərbaycana qayıdış" festival-konqresin Zəngəzur Milli Parkında (Batabat yaylağı) və Naxçıvan şəhərində keçirilməsinin doğma yerlərə qayıtmaq istəyən insanlar üçün hansı mənəvi güc verdiyini təsəvvür etmək çətin deyil. Əlbəttə, tarixi vətənlərinə dönmək arzusunda olan adamlar o yerlərə tanklarda deyil, adi mülki nəqliyyat vasitələrində dönmək, dağıdılmış ev-eşiklərini yenidən qurmaq və şenləndirməkdə qərarlıdırlar. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki muzeyinin ziyarəti ilə başlayan, Zəngəzur Milli Parkındakı Batabat Yaylağında davam etdirilən "Qərbi Azərbaycana qayıdış" festivalın-konqresin məzmunlu kompozisiyasındakı hər bir detal bunu deyirdi.




Festival-konqresin rəsmi açılış mərasimi Batabat yaylasında müdrik Dədə Qorqudun xeyir-duası ilə başladı. Çıxışçılar – Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru Mahirə Hüseynova, İğdır Universitetinin rektoru Mehmet Hakkı Alma soydaşlarımızın Vətənə qayıdışında festival-konqresin oynayacağı özünəməxsus rol barədə danışdılar. Sonra festival-konqresin proqramında xüsusi yer tutan, Elm və Təhsil Nazirliyinin ümumtəhsil məktəblərində 10 mindən artıq yeniyetmə və gəncin iştirakı ilə təşkil edilmiş "Qərbi Azərbaycana qayıdış" olimpiadasındakı bütün mərhələlərdən keçərək yekun turda layiqli yer tutan qaliblərin mükafatlandırılması ən həyəcanlı məqamlardan idi.

Festival-konqres bir də onunla diqqət çəkirdi ki, əsrlərlə Qərbi Azərbaycanda yaşayan, XVIII yüzilliyin sonlarında regionda, xüsusilə həmin bölgədə baş verən ictimai-siyasi hadisələrin yekunu olaraq dil içində dilini, din içində dinini qoruyan soydaşlarımızın özünəməxsusluğu ilə seçilən adət-ənənələrin təqdimatları baş verirdi. Bunlardan 4 gəncin Qərbi Azərbaycanın toy adətlərinin göstəricisi olaraq toy mərasimlərinin festivalın proqramında yer tutması tədbirə xüsusi kalorit verdi. NDU İncəsənət fakültəsinin və Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında təqdim edilən Qərbi Azərbaycana aid aşıq musiqiləri, yallılar, kompozisiyalar, musiqi nömrələri, xalq oyunlarının hər biri o elobanın vizit kartı idi.

Bütövlükdə Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın əsrlərlə yaratdığı maddi-mənəvi sərvətlərin konqresdə araşdırılması, həmçinin son 30 ildə nəşr edilən ayrı-ayrı elmi ədəbiyyat nümunələrinin müzakirələri onu göstərdi ki, araşdırmaların intensivləşdirilməsinə böyük zərurət qalmaqdadır. Təvazökarlıq çərçivəsinə nə qədər sığacağına tərəddüdlü olsaq da bildirək ki, bu sətirlərin müəllifinin "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" və "XX əsrdə Dərələyəzdə Urbisid və Etnosid Aktları" kitablarının təqdimatı konqresin yaddaqalan hadisələrindən oldu. Xatırladaq ki, "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" kitabı üzərində son beş ildə çalışmalara baxmayaraq, bu sahədə araşdırmalara Qərbi Azərbaycan ziyalıları ilə məşhur görüşdə Azərbaycan elminin böyük hamisi Prezident İlham Əliyevin çağırışları impuls verdi. Kitabda mənəvi bağlılığımızı heç zaman itirmədiyimiz o regiondakı türkmənşəli toponimlər, onların yayılma arealları, dilin arxaik forma və strukturu, ümumiyyətlə, paleotoponimik leksikası tədqiqata cəlb edilib.

Qeyd etməyi lazım bilirik ki, türk dillərinə aidiyyatı şübhə doğurmayan fonetik dəyişmələrə məruz qalan toponimlər araşdırılarkən digər xalqların nümayəndələri onları özününküləşdirməyə cəhd etdiklərindən yanlış nəticələrə gəlib çıxmışlar. Nəticədə, tarixən, daha doğrusu, antik dövrlərdən yol gələn və türk dillərinin fonetik, leksik, semantik, qrammatik quruluşu əsasında formalaşmış və təşəkkül tapmış paleotoponimlər ya fars, ya ərəb, ya yunan, ya da erməni dilinə aid edilmişdir. Bu işdə ən çox fitnəkar siyasəti paleotoponimləri mənəvi soyqırıma məruz qoyan şovinist erməni alimləri olmuşlar. Onu da vurğulamaq lazımdır ki, türkmənşəli toponimlərin əksəriyyəti yunan, roma, ərəb, fars, türk mənbələrində yazıya alındığından həmin dillərin transkripsiyasına uyğunlaşdırılması toponimləri tanınmaz dərəcədə dəyişikliyə məruz qoyubdur. Qeyd edək ki, əsasən erməni (V. L. Quqasyan, Z. Qorqodyan, Ter-Xinasyan), rus (М. И. Артомонов, К.Ф. Ган) və azərbaycanlı (B. Budaqov, Q. Qeybullayev) müəlliflərin tədqiqatları və Rusiya, Türkiyə, Gürcüstandakı arxiv sənədləri əsasında aparılan tədqiqatlar Qərbi Azərbaycandakı toponimlərin mənşəcə türkdilli olmasını əsaslandırdı.

Bundan əlavə, NDU-nun Elmi kitabxanasında pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmovun "İrəvan Kişi Gimnaziyası və onun azərbaycanlı məzunları" və filologiya elmləri doktoru, professor İbrahim Bayramovun "Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur" kitablarının təqdimatı oldu. Fərrux Rüstəmovun "İrəvan Kişi Gimnaziyası və onun azərbaycanlı məzunları" kitabı XIX əsrin 30-cu illərindən XX əsrin əvvəllərinə kimi İrəvanda demokratik təhsil mühitinin formalaşdırılmasında əhəmiyyətli rol oynamış qəza məktəbi və progimnaziya haqqında dolğun məlumatlarla zəngindir. İbrahim Bayramovun "Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur" adlı əsəri Zəngəzurun tarixi coğrafiyası və toponiminin etimologiyasından bəhs etməsi ilə bərabər, kitabda ilk dəfə olaraq Azərbaycan dilinin Zəngəzur şivələri tədqiq olunur. Paralel olaraq Qərbi Zəngəzurun coğrafiyası, toponimləri, tarixi abidələri, həmçinin azərbaycanlılara qarşı törədilmiş cinayətlər sənədlər əsasında təqdim edilir.

Festival-konqresdə "Ulduz" jurnalı kollektivinin (baş redaktor Qulu Ağsəs) hazırladığı "Qərbi Azərbaycan" xüsusi buraxılışının təqdimatı da xoş sürprizlərdən sayıla bilər. Maraqlı olan budur ki, xüsusi buraxılışdakı materialların müəlliflərindən bəziləri 1948–53-cü illərdə həyata keçirilən deportasiyadan əvvəl və sonra və yaxud ötən əsr 80-ci illərinin sonunda dünyaya gəlmələrinə baxmayaraq, barəsində ancaq eşitdikləri Vətənin obrazını yaradanlardır.

Bu, həmin Vətəndir ki, onun uğrunda Mehdi Abbasov, Səxavət Məhərrəmov, Aqil Quliyev, Riyad Əhmədov, Mehman Sayadov, Fərhad Hümbətov, Şahlar Hüseynov, Etibar Hacıyev və onlarla digər qərbi azərbaycanlı Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrundakı döyüşlərdə ayrı-ayrılıqda qəhrəmanlıq nümunələri yaratmış, bu gün də Milli Qəhrəman kimi gəncliyimizə əbədi nümunə olaraq qalmaqdadırlar. Yeri gəlmişkən, həmin təqdimat mərasimində NDU-nun rektorunun günümüz üçün aktual olan bu məsələ ilə bağlı çağırışı bütün iştirakçıların diqqətini çəkdi: "Qarabağa qayıdışı bizim müzəffər Ordumuz icra edibsə, Qərbi Azərbaycana qayıdışı alimlər ordusu, yəni bizlər qələmlə, sözlə, fikirlə, tarixlə, ədəbiyyatla təmin etməliyik".

"Qərbi Azərbaycana qayıdış" festival-konqresi cəmiyyətimiz üçün çox mühüm mesajları ilə də yadda qaldı. İlk olaraq prosesin geridönməzliyi cəmiyyətimiz üçün stimula çevrilir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəndən sonra soydaşlarımızın tarixi vətənlərinə dönüşü dövlətimiz üçün prioritet məsələyə çevrilib. Naxçıvan Muxtar Respublikasında 3 gün ərzində davam edən festival-konqres ölkəmizin elm və yaradıcı adamlarının bu yöndə səfərbər olunması üçün atılan növbəti addım kimi ibrətamiz oldu.

Tədbirin təşkilatçılarından biri olan Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin festival-konqresin hazırlanıb həyata keçirilməsində müstəsna xidmətlərini qeyd etməklə bərabər, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Milli Konservatoriyası, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dillər Universiteti, Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi, Bakı Slavyan Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Dövlət Gömrük Komitəsi Akademiyası, AMEA Naxçıvan Bölməsi, Naxçıvan Müəllimlər İnstitutu, eləcə də, qardaş Türkiyədən olan universitetlərin tərəfdaş qismində iştirakını vurğulamağı vacib sayırıq. Adları çəkilən qurumlar öz potensialları ilə Qərbi Azərbaycana qayıdış yolunda ilk addımlarını atırlar və inanırıq ki, bu addımlar yurd yerlərinə çatanacan davam edəcək.

***Mahirə HÜSEYNOVA,***
***ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor***

# Milli təhsilimizin tarixi səhifələri

**"Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi" kitabı işıq üzü gördü.**

Azərbaycan təhsilinin tarixində Qori Müəllimlər Seminariyası mühüm rol oynadığı kimi, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi də əvəzsiz işlər görmüşdür. Qori Müəllimlər Seminariyasının fəaliyyəti haqqında xeyli tədqiqat və araşdırma aparılmış, bu məşhur təhsil ocağının gördüyü işlər nəinki təkcə təhsil ictimaiyyətinə, həm də geniş oxucu kütləsinə çatdırılmışdır. Ancaq İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin tarixi, fəaliyyəti, Azərbaycan təhsilinin inkişafında oynadığı rol kifayət qədər araşdırılmadığından onun müstəsna fəaliyyəti uzun illər diqqəti cəlb etməmişdir. Amma bu məktəb də öz dövrünün təhsil sahəsində flaqmanı olmaqla elə bir dövrdə fəaliyyət göstərmişdir ki, pedaqoji kadrların hazırlanmasına böyük ehtiyac vardı. Bu ehtiyacın ödənilməsində İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi öz çiyinləri üzərinə məsuliyyətli, həm də gərəkli olan bir işi götürmüş və Azərbaycan təhsilinin inkişafında böyük xidmətləri ilə adını təhsil tariximizə yazdırmışdır.

Tədqiqatçı alimlər Könül Həsənova və Cəlal Allahverdiyevin həmmüəllifliyi ilə işıq üzü görən 372 səhifəlik "Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi" adlı monoqrafiya bu baxımdan daha çox diqqətəlayiqdir. Kitabda 1924-1948-ci illərdə İrəvanda fəaliyyət göstərmiş, milli məktəbləriniz üçün pedaqoji kadrların hazırlanması işində böyük rol oynamış pedaqoji məktəbin yaranmasından, fəaliyyətindən, erməni şovinizmi əhatəsində üzləşdiyi problemlərdən, eləcə də görkəmli məzunlarından bəhs olunur. İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 100 illik




yubileyini böyük ehtiram nümunəsi olan kitab təhsil tariximizin yeni səhifələrindən olmaqla, həm də bu sahə ilə maraqlananlar, pedaqoqlar və geniş oxucu kütləsi üçün dəyərli nümunədir.

# Qərbi Azərbaycanın maddi-mədəni abidələri barədə film

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirilən "Qərbi Azərbaycanla bağlı informasiya mübarizəsi" layihəsi çərçivəsində filmin çəkilişləri yekunlaşdırılıb. Film Qərbi Azərbaycanın maddi-mədəni abidələri ilə bağlıdır.**

"İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri və layihənin rəhbəri Cəsarət Hüseynzadə bildirib ki, film Səlim Karvansarası, Təpəbaşı məscidi və Əmir Səəd türbəsi kimi tarixi abidələrdən bəhs edir. Bu abidələr Azərbaycan xalqının qədim tarixini və zəngin mədəni irsini əks etdirən dəyərli mənbələrdir. Onların məhv edilməsi milli kimliyin və mədəni irsin izlərini silmək cəhdidir.

O qeyd edib ki, filmin çəkilişlərinə tanınmış tarixçi - araşdırmaçı alimlər cəlb olunub və çəkilişlər yekunlaşıb. Filmin xarici auditoriyaya çatdırılması üçün ingilis dilində subtitrlərdən istifadə ediləcək. Layihə çərçivəsində, eyni zamanda, Qərbi Azərbaycanın maddi-mədəni abidələri ilə bağlı elektron baza da yaradılır.




***Səfihəni hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

**1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür**

# Dilimizin özəlliklərini qorumaq hər kəsin borcudur

**Milli düşüncə tərzinin inkişafında müstəsna rol oynayan dil hər bir xalqın ən qiymətli sərvəti, ən ülvi yadigarı və qürur mənbəyidir. Millətin dili onun təfəkkürünün, həyat tərzinin ifadə formasıdır. Müstəqil dövlətimiz möhkəmləndikcə milli ideologiyamızın mühüm tərkib hissəsi olan dilimiz də zənginləşir, inkişaf edir.**

Ümummilli lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli fərmanına əsasən hər il avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Ulu öndər həmin tarixi sənədi latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ərəfəsində Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyevanın bu mövzuda fikirlərini öyrəndik. Bildiyimiz kimi, bu mərkəz Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli Fərmana əsasən Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edilməsi, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasının təmin edilməsi məqsədilə yaradılıb. Müsahibəni təqdim edirik:

**– Sevinc xanım, əvvəla, bayramınız mübarək! Sizin rəhbərlik etdiyiniz qurumun dövlətin dil siyasətinə uyğun olaraq ardıcıl monitorinqlər aparmaqla, dil normalarının pozulması hallarının azaldılması və aradan qaldırılması yönümündə təsirli tədbirlər gördüyü məlumdur. Zəhmət olmasa, öncə fəaliyyətinizin əhatə etdiyi sahələrdən danışın.**

– Təşəkkür edirəm. Bizim mərkəz fəaliyyət göstərdiyi müddət ərzində dövlət dilinin tətbiq olunduğu müxtəlif sahələrdə – televiziya, radio və internet məkanında, çap və elektron mediada, eləcə də açıq məkan reklamları, dublyaj filmləri və mahnıların dili üzərində monitorinqlər aparmış və qeydə alınmış nəticələr 8 hesabat kitabında toplanılaraq ictimaiyyətə və aidiyyəti qurumlara təqdim edilmişdir. Başlıca məramımız budur ki, milli kimliyimizi təsdiqləyən əsas amillərdən sayılan ana dilimiz saf, təmiz və mümkün qədər yabançı təsirlərdən uzaq olsun. Sadaladığım sahələrin hər birində dil normalarına ciddi riayət olunmasını daimi nəzarətdə saxlamağa çalışırıq.

**– Mümkünsə, ayrı-ayrı sahələrdə monitorinqlərin müəyyən xarakteristikasını verin.**

– Saytların monitorinqindən başlayaq. Mərkəzimizdə ilk olaraq 60-dan çox saytın dili üzərində monitorinq aparılıb, "Saytların monitorinqi ilə bağlı hesabat" kitabı 2021-ci ildə nəşr olunub. Sözügedən monitorinqin nəticələri ilə bağlı statistikanı nəzərinizə çatdırmaq istəyirik. Qeydə alınmış 5500 dil faktından 3976-sı hesabata daxil edilib.

Mərkəz 2023-cü ildə saytları 2-ci dəfə monitorinqə cəlb edib və 52 saytda ədəbi dil normalarının pozulması hallarına aid xeyli fakt aşkarlanıb. Qeydə alınmış 4500 dil faktının 80 faizi hesabata daxil edilib. Statistikadan da göründüyü kimi, saytlar üzərində aparılmış ilk monitorinqlərə nisbətən müəyyən irəliləyişlər olsa da, vəziyyət hələ də qənaətbəxş deyil.

**– Bəs bu gün əsas nitq mədəniyyəti kürsüsü sayılan, yüksək kommunikativ imkanları və texniki təchizatı olan, ən əsası, ətrafına geniş tamaşaçı auditoriyası toplayan televiziyalar?**

– Televiziya məkanında nitq qüsurları xüsusilə yolverilməzdir. Mərkəz bu sahədə 2022-ci ildə dil monitorinqi aparıb və "Televiziyaların dili monitorinq aynasında" adlı hesabat kitabını dərc edib. 12 televiziya kanalının monitorinqinə həsr olunmuş kitabda aparıcı, müxbir, ekspert və qonaqların nitqində müşahidə edilmiş norma pozuntuları, üslub və ifadə yanlışlıqları, eləcə də titrlərdə və dublyaj olunmuş filmlərdə yol verilmiş xarakterik səhvlər qeydə alınıb. Təəssüf ki, monitorinq zamanı kobud orfoepik qüsurlara, səslərin öz məxrəcindən kənar tələffüzünə, vurğunun yerində işlədilməməsi hallarına tez-tez rast gəldik. Yanlış işlədilən söz və ifadələr, qrammatik forma və əlaqələr, dilimizdə qarşılığı olduğu halda, istifadə olunan əcnəbi leksik vahidlər, dilimizə yad olan intonasiya və cümlə tipləri monitorinq zamanı təəssüf doğuran məqamlardan olub. Üslubi baxımdan qüsurlu qurulan cümlələr, buraxılan və ya izafi işlədilən söz və ifadələr, fərdi lüğət ehtiyatının zəifliyi səbəbindən yol verilən təkrarlar aşkarladığımız üslubi yalnışlıqlardan bir neçəsidir.

Sözügedən monitorinq zamanı qeydə alınmış 6 min dil faktından 4753-ü hesabata daxil olunub. Yeri gəlmişkən, mərkəz televiziya kanallarının dili üzərində 2-ci dəfə aparılmış monitorinqin nəticələrini yaxın vaxtlarda ictimaiyyətə təqdim edəcək.

**– Media sferasında xüsusi yer tutan radioların və kütləvi auditoriyası olan dublyaj filmlərinin monitorinqi nə göstərib?**

– Məlumdur ki, radionun informasiyanın operativ çatdırılması, ictimai şüurun formalaşdırılması, eləcə də estetik və mənəvi dəyərlərin aşılanmasında müstəsna əhəmiyyəti var. Günümüzdə radio düzgün danışıq qaydalarını təbliğ edən nitq mədəniyyəti tribunası olduğundan radio kanallarının aparıcıları dövlət dilini mükəmməl bilməli, səlis nitqə malik olmalı və ədəbi dil normalarına əməl etməlidirlər. Dinləyici ilə təsirli və aydın ünsiyyət qurmaq, informasiyanı daha anlaşıqlı çatdırmaq üçün də sadalananlar zəruri amillərdir. Bütün bunları nəzərə alaraq, mərkəz 2022-ci ildə respublikada fəaliyyət göstərən 11 radio yayımını monitorinqə cəlb edib. Aparıcı və qonaqların nitqindən qeydə alınmış 4500-ə yaxın dil faktından 3484-ü hesabata daxil olunub. Əlbəttə, çoxdur.



Dublyaja gəlincə, milli telekanallarımızın qarşısında duran ən aktual məsələlərdən biri də bu işin yüksək səviyyədə təşkilidir. Dublyaj sənəti bədiiliklə yanaşı, tərcümə və dil məsələlərini ehtiva edir. Bu baxımdan, bədii film, serial, eləcə də sənədli və cizgi filmlərində Azərbaycan dilinin düzgün tətbiqi çox önəmlidir. Təəssüf ki, dublyaj olunan filmlərdə də yanlışlıqlar tendendiyası yox deyil. Bu isə ədəbi dilimizə yad təsirlərin nüfuz etməsinə yol açır, nitq mədəniyyətini, necə deyərlər, axsadır. Dublyajların monitorinqi zamanı qeydə alınmış 350 dil faktından 302-si hesabata düşüb. Hazırda dublyaj filmlərinin monitorinq nəticələrinə həsr olunan ikinci kitab nəşrə hazırlanır.

**– Qəzetlərdə vəziyyət necədir?**

– Dilin inkişafında çap mediasının rolu danılmazdır. Qəzetlərdə ədəbi dil normalarından sapma hallarının müşahidə edilməsi bu sahədə də monitoriqin aparılmasını labüd edib. İnişil ölkədə nəşr olunan müxtəlif qəzetlər monitorinqə cəlb olunub, bir sıra orfoqrafik, leksik, qrammatik norma pozuntuları, eləcə də üslub və ifadə yanlışlıqları qeydə alınıb.

Biz mahnıların da monitorinqini aparırıq. Aparıcı musiqi janrı olan, dillərə düşən mahnılardan da, dilimizin incəliklərinə riayət edilməsini, gözəlliyi, ahəngdarlığı ehtiva etməsini umuruq. Mahnı yaradıcılığında söz, musiqi və ifa vəhdət təşkil edir, amma bəzən bu tələblərə önəm verilmir. Ötən il hazırladığımız "Mahnılarımız monitorinq aynasında" adlı hesabat kitabında bu barədə xeyli misal var: söz yığını, anlaşılmaz misralar, milli-mənəvi dəyərlərimizə zidd olan ifadələr və s. Bəsit məzmunlu mahnıların televiziya kanallarında tez-tez səsləndirilməsi tamaşaçıların haqlı iradına səbəb olmaqla yanaşı, böyüyən nəslin mədəni-estetik zövqünü də korlayır. Məhz bu səbəbdən kitabda təqdim olunan mahnı nümunələri təkcə ədəbi dil normaları üzrə deyil, məzmun və təqdimatına görə də qruplaşdırılıb.

**– Dediniz ki, reklamların da monitorinqi aparılır...**

– Elədir. Bazar münasibətlərinin inkişafında xüsusi rol oynayan reklamlar mənəvi-estetik dəyərlərin aşılanması və maarifçilik işinin təbliğ edilməsi istiqamətində mühüm əhəmiyyətə malik vasitələrdəndir. İstehlakçı ilə əlaqə qurmaq, məhsul və xidmət haqqında məlumatı ona daha anlaşıqlı, səlis bir dildə çatdırmaq üçün reklamların hazırlanmasında vacib olan digər şərtlərlə yanaşı, Azərbaycan ədəbi dilinin normalarına əməl olunması da zəruri amillərdəndir.

Günümüzdə geniş auditoriyası, kütləviliyi və hər kəs üçün əlçatanlığı ilə fərqlənən açıq məkan reklamları, əsasən, qısa və yığcam olmasına baxmayaraq, dilin aktiv təbliğat vasitələrindən biridir. Cəmiyyət həyatının bütün sahələrinə nüfuz edən reklamlar onu hazırlayan mütəxəssislərin Azərbaycan dili biliklərinin səviyyəsini göstərməklə yanaşı, dilimizin leksik-üslubi və ekspressiv-emosional vasitələrindən istifadə etmək bacarığını da nümayiş etdirir. Deməli, reklamlar həmçinin şəhərimizin dil mənzərəsini əks etdirən aynadır.

Bu gün açıq məkan reklamlarının mətnlərində, elan və afişalarda, eləcə də televiziyalarda yayımlanan audiovizual reklamlarda səhvlərin olması, dilimizin üslubi imkanlarından yetərincə istifadə edilməməsi, fonetik, leksik və qrammatik tələblərin gözlənilməməsi təəssüf doğurur. İstənilən qədər misal çəkmək olar. Buna aid monitorinqə həsr etdiyimiz kitabı ictimaiyyət böyük maraqla qarşılayıb. Əminik ki, hesabatlarımız, kitablarımız dil normalarına birmənalı əməl olunmasına bundan sonra da kömək edəcək.

**– Azərbaycan Əlifbası və ana dili günündə tənqid çox olmadı ki?**

– Bəlkə də, çox oldu. Amma bu da işin xeyri üçün deyilmi? Axı ana dilinin saflığını qorumaq hər birimizin borcudur. Ötən illər ərzində Monitorinq Mərkəzi daim ictimaiyyətlə əks-əlaqədə olmuş, dilimizin saflığının qorunması, düzgün tətbiqi, beynəlxalq aləmdə təbliği və s. bu kimi vacib məsələləri işıqlandırmaq məqsədilə müxtəlif televiziya və radio kanalları ilə əməkdaşlıq etmişdir. 2022-ci ilin aprelindədək ASAN Radioda yayımlanan "Nitq mədəniyyəti" verilişi, may ayından Real Radiosunda gedən "Redaktor" verilişi, ötən ildə Azərbaycan Televiziyasında başlanan "Sözün düzü" adlı yeni layihə bu məramə xidmət edib. Həmin verilişlərdə alimlər, müəllimlər, tədqiqatçılar, jurnalistlər və başqaları ilə müzakirələr aparılıb, dövlət dilinin tətbiqi sahəsindəki problemlər səsləndirilib, tövsiyələr verilib.

Digər çoxsaylı layihələr, təlimlər, müsabiqələr də bu məqsədə xidmət edir. Müxtəlif qurumlarla əməkdaşlıq faydalı olur. "Ana dilimiz və təhsil", Azərbaycan dili və mədəniyyətimiz" "Ana dili və ziyalı təəssübkeşliyi" "Heydər Əliyev İli" çərçivəsində tələbə və kursantlar arasında esse müsabiqələrini göstərmək olar. Mərkəzin xaricdə yaşayan soydaşlarımız və digər xalqların nümayəndələri arasında elan etdiyi esse müsabiqələri isə ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlı ailələrdə milli düşüncəyə malik gənc nəslin yetişdirilməsini, çoxəsrlik mədəni, tarixi irsimizin təbliği və qorunmasını təmin etmək məqsədilə keçirilib.

Mərkəzin əməkdaşları televiziya kanallarında, radiolarda, qəzet səhifələrində daim qurumun fəaliyyət istiqamətlərinə aid olan sahələrdə doğma dilimizin tətbiqi məsələləri haqqında müntəzəm çıxışlar edirlər.

**– Sevinc xanım, onu da bilirik ki, mərkəzinizin əməkdaşları beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslarda, seminar və "dəyirmi masa"larda iştirak edirlər. Eyni zamanda, sosial şəbəkələrdə mərkəzin fəaliyyəti geniş əksini tapır. Bir neçə kəlmə də bu barədə danışın.**

– Başqa cür mümkün deyil. Əməkdaşlıq, qarşılıqlı təcrübə mübadilələri faydalı iş əmsalının daha da artmasına xidmət edir. Mərkəzin Azərbaycan və rus dillərində rəsmi saytı (https://monitorinqmerkezi.az) fəaliyyət göstərir. Sözügedən saytda mərkəzin fəaliyyətini əks etdirən xəbərlər, qurumun əməkdaşlarının məqalə və müsahibələri yer almış, həyata keçirilən layihələr haqqında geniş məlumat verilmişdir. Eləcə də mərkəzin feysbuk, instaqram platformaları, yutub kanalı da mövcuddur və onların vasitəsilə izləyicilərin böyük marağla izlədikləri "Doğru danışaq", "Bilmək faydalıdır", "Gəlin düşünək", "Sözün düzü", "Söz sizdən, meydan bizdən", "Elin dili ilə", "Elə yox, belə" kimi rubrikalar təqdim olunur. Medianın dilində qeydə alınmış orfoqrafik, orfoepik, leksik və qrammatik norma pozuntuları konkret nümunələr əsasında izah edilir, maarifləndirici çarxlar nümayiş olunur. Burada mərkəzin fəaliyyəti ilə yanaşı, ölkəmizin ictimai, siyasi, mədəni həyatında baş verən mühüm hadisələr də mütəmadi olaraq işıqlandırılır.

Xatırladım ki, fəaliyyətimizin yaddaqalan səhifələrindən biri də ötən il mədəniyyət paytaxtımız Şuşada keçirilmiş "1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür" adlı tədbir olub. Dövlət dilimiz haqqında məhz tac-şəhərdə danışmağın necə şərəfli və qürurverici olduğunu gördük. Bizə orada bu kimi tədbirlərin keçirilməsini əlçatan edən, 44 günlük Vətən müharibəsinin qələbəsini Şuşa zəfəri ilə taclandıran Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Ordumuza dərin minnətdarlıq duyğularımızı ifadə etdik.

Sonda onu deyim ki, müəyyən istifadə qüsurlarına baxmayaraq, dilimiz dinamikdir və daim inkişaf etməkdədir.

**– Maraqlı müsahibə üçün sağ olun!**

*Əli NƏCƏFXANLI*
*XQ*

# Təxəyyüllə sənəti qovuşduran məkan

**Milli mədəni irsimizin təşviqi, ənənəyə müasir baxış, milli və müasir irsimizin zənginləşməsinə xidmət edən meyillərin əksi...**



Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda açılan "Təxəyyül" adlı rəsm sərgisi hər bir ziyarətçini bu auraya salır.

"Təxəyyül Art Group"un 60-dan çox rəssam üzvünün 100-dək sənət əsərinin yer aldığı sərgidə rənglərin yaratdığı ecazkar mühit hər bir ziyarətçidə xoş ovqat yaradır.

Xalçaçı-rəssam, sərginin layihə rəhbəri Natiq Nəcəfzadə salonda yer alan sənət əsərləri barədə məlumat verdi:

– Sərginin təşkil olunmasında məqsəd qrup üzvlərinin əsərlərinin daha geniş publikaya tanıdılması, milli mədəni irsimizin təşviqi, ənənəyə klassik və müasir baxışın, nəzəri və təcrübi bilik və vərdişlərin formalaşması, milli və müasir irsimizin zənginləşməsinə xidmət edən meyillərin əks olunmasıdır. Sərgidə rəngkarlıq, qrafika, heykəltəraşlıq, dekorativ-tətbiqi sənətin nümunələri olan bədii tikmə, qurama, dulusçuluq, keramika, keçə və xətt sənəti təqdim olunur. Sərgidə yer alan əsərlərlə tanış olan hər kəs sənətin avanqard sirlərinə yaxından bələd ola biləcək. Ölkəmizin milli-mədəni irsini təbliğ və təmsil etmək üçün xarici ölkələrdə təşkil olunan sərgilərdə də iştirak etmək əsas məqsədlərimizdəndir. Onu da qeyd edim ki "Təxəyyül ART GROUP"un tərkibində xarici ölkə vətəndaşları olan rəssamlar da var.



Açılışdan öncə Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağəli İbrahimov, Xalq rəssamı Aydın Rəcəbov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və digərləri çıxış edərək sərgi haqqında fikirlərini bölüşüb, nümayiş edilən əsərlərin üslub və forma baxımından orjinallığını qeyd etdilər. Ekspozisiyada yer alan əsərlərin əsl sənət nümunəsi olduğunu söyləyən natiqlər, fırça ustalarına yaradıcılıq uğurları arzuladılar.

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Sərgi iştirakçıları sertifikat və təşəkkürnamələrlə təltif edildilər.

*C.ALIŞLI*

# "Elm və həyat"ın yeni sayı

**AMEA-nın "Elm və həyat" elmi-populyar jurnalının 2024-cü ildə 2-ci sayı nəşr olunub.**




Yeni say Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Bakıda Botanika İnstitutunun yeni binasının açılış mərasimində çəkilmiş foto və ardınca akademik İsa Həbibbəylinin "Azərbaycan Elmlər Akademiyasının Nizamnaməri" məqaləsi ilə açılır.

"Yeniləşən akademiya" rubrikasında fəlsəfə elmləri doktoru Füzuli Qurbanovun "AMEA – Azərbaycanın elmi yaddaş və intellektual məkanı" məqaləsinin davamı, "Nobel mükafatçısı Əziz Səncər Azərbaycanda" rubrikasında isə AMEA Prezidenti akademik İsa Həbibbəylinin dəvəti ilə ölkəmizdə səfərdə olan məşhur alimin görüşləri, iştirak etdiyi tədbirlər və Naxçıvana səfəri haqqında ətraflı məlumatlar və mədəniyyət üzrə fəlsəfə doktoru Nəzmin Cəfərovanın " Əziz Səncər: mən Türk dünyasının birliyini görmək istərdim, bu mənim ən böyük arzumdur" adlı ümumiləşdirilmiş xronika yazısı təqdim olunur.

Nəşrin bu sayında AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin "Loqotip müsabiqəsi: nəticələr və perespekrivlər", fəlsəfə üzrə fəlsəfə doktoru Firuzə Əliyevanın "COP29 çərçivəsində ekoloji bilik və ekoloji şüur", biologiya üzrə fəlsəfə doktoru Zenfira Qədimovanın "Sağlam ekoloji mühit insan uzunömürlülüyünun qarantıdır", memarlıq üzrə fəlsəfə doktoru Rizvan Qarabağlının "Tuğun memarlıq irsi", biologiya üzrə fəlsəfə doktoru Şahvələd Əliyev və landşaftşünas Nəsibə Məmmədovanın "Füzulinin turizm əhəmiyyətli abidələri", tarix elmlər üzrə fəlsəfə doktoru İsmayıl Ümudlunun " Şəhriyar xalq romanının ikinci əlyazması" sərlövhəli yazıları və s. məqalələr dərc edilib.

Bundan əlavə "Türk dünyası" rubrikasında Kuranbek Aset və Qazis Telebayevin, Şəmsəddin Kuzəçinin, Əzizağa Ələkbərlinin, İlhami Cəfərsoyun, Rəşid Fətəliyevin və "Naxçıvan muxrariyyəti" rubrikasında tarix üzrə fəlsəfə doktoru Kamran İsmayılovun, biologiya elmləri doktoru İsmayıl Məmmədov və aqrar elmlər üzrə fəlsəfə doktoru Pərviz Fətullayevin məqalələri verilib.

Jurnalda, həmçinin "Qarabaq", "Dünya elm aləmində", "Memarlıq və incəsənər", "Meredian", "Fotokimya", "Faşizm üzərində qələbə" və "Sağlamlıq dünyası" bölməsində yer alan məqalələrdə də tanış olmaq mümkündür.

Jurnalın baş redaktoru, AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir.

*XQ*

Redaksiyamızın qonaqları

# Azərbaycanı dünyada tanıdan alim



**Dünyanın ən müxtəlif ölkələrində, hətta Amerika, Almaniya, Yaponiya, Avstriya kimi məşhur ölkələrinin nüfuzlu elm ocaqlarında, təhsil mərkəzlərində, aparıcı şirkətlərdə bir sıra azərbaycanlı alimlər, mütəxəssislər çalışır, yaşadıqları ölkələrin elminə və mədəniyyətinə xidmət göstərir, eyni zamanda, Azərbaycan həqiqətlərini təbliğ edir, ümummilli məsələlərdə birlik və həmrəylik nümayiş etdirirlər.**

Redaksiyada belə azərbaycanlı elm adamları və tanınmış simalarla görüşlərin keçirilməsi ənənəyə çevrilib. Bu ənənənin davamı olaraq növbəti görüş çox maraqlı ömür yolu keçmiş həmyerlimiz, müdafiə sənayesi üzrə tanınmış mütəxəssis – Ankara Bilkənd Universitetinin professoru, universitetin Nanotexnologiya Araşdırma Mərkəzinin baş elmi işçisi, Türkiyə Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Xeyriyyə Cəmiyyətinin Qəyyumlar Şurasının üzvü, fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor Əmirulla Məmmədovla oldu.

Görkəmli elm xadimini salamlayan "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov dünya şöhrətli soydaşımızın zəngin bioqrafiyası barədə ətraflı məlumat verərək bildirdi ki, Əmirulla Məmmədov Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika fakültəsinin məzunudur. Ali təhsil aldıqdan sonra fizika fakültəsinin "Yarımkeçiricilər fizikası problemi" elmi-tədqiqat laboratoriyasında işləməyə başlayıb. Burada o, xüsusilə məxfi və dövlət üçün strateji əhəmiyyət daşıyan məlumatları oxumaq hüququna malik yeganə əməkdaş olub.

Xatırladaq ki, elmi fəaliyyəti ilə bağlı Leninqrad və Rostov şəhərlərində ezamiyyətdə olarkən amerikalı mütəxəssislərin diqqətini cəlb edib. ABŞ prezidenti C.Ford Moskvada olarkən rəsmi məktubla SSRİ-nin rəhbəri L.İ.Brejnevdən şəxsən xahiş edib ki, Əmirulla Məmmədovun onun ölkəsinə ezam olunması təmin edilsin və bundan bir neçə il sonra Əmirulla Məmmədovun Amerika səfəri reallaşıb. ABŞ-nin Nebraska, Viskonsin, Stənford universitetlərində çalışıb və son dərəcə önəmli elmi araşdırmalar aparmağa nail olub. Yalnız elmə xidməti və siyasi yetkinliyi sayəsində Əmirulla Məmmədovda nə SSRİ DTK-sı, nə də ABŞ MKİ heç bir "qüsur" aşkar edə bilməyib.

Azərbaycan SSR-in elm sahəsində Dövlət mükafatına layiq görülüb, 1989-cu ildə professor elmi adını alıb və 1990-cı ildə İtaliyanın La Sapiyenze Universitetində mühazirələr oxumağa dəvət olunub. Burada təsadüfi bir tanışlıq nəticəsində "Türk Dünyası Araşdırmalar Vəqfi"nin rəhbəri, professor Turan Yazqan tərəfindən Türkiyəyə dəvət alıb, Adana şəhərindəki Çukurova Universitetində əmək fəaliyyətini, elmi axtarışlarını davam etdirib. Hərbi sənaye kompleksində əhəmiyyətli araşdırmaları olan azərbaycanlı alim haqqında o zamankı Türkiyə Prezidenti Turqut Özal məlumatlandırılıb Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəlin imzaladığı xüsusi qərarla "Aselsan"da elmi məsləhətçi kimi əmək fəaliyyətinə başlayıb.

Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor Əmirulla Məmmədov Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun üzvü və Qəyyumlar Şurasının rəhbəri olaraq Türkiyədəki Azərbaycan diasporu ilə fəal iş aparır. O, xalqımızın zəngin mədəni irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, müxtəlif ölkələrin ictimai və siyasi dairələri ilə əlaqələrin yaradılması istiqamətində yorulmadan çalışır. Əmirulla müəllim Türkiyədə yaşayan Azərbaycanlı Elm Adamlarının Dərnəyinin (Azerbaycan Bilim İnsanları Derneği – ABİD) İdarə Heyətinin sədridir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2016-cı ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. 2022-ci ildə isə Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif olunub və bu orden Dünya Azərbaycanlıları V Qurultayının iştirakçısı olan professora Şuşa şəhərində təqdim olunub.

Redaksiyada keçirilən görüşdə Əmirulla müəllim zəngin həyat yolundan danışıb, redaksiya əməkdaşlarının çoxsaylı suallarını cavablandırıb. Görüşdə onun həyat yoldaşı Elnarə Axundova və Amerikanın Texas Universitetində doktorontura təhsili alan nəvəsi Gülçin İsayeva iştirak ediblər.

*XQ*

# Ermənistan iqtisadiyyatının arxa üzü

**"Sputnik Armenia" saytına bu ölkənin keçmiş maliyyə naziri, dövlət maliyyə idarəçiliyi üzrə beynəlxalq məsləhətçi Vardan Aramyan bildirib ki, cari ilin birinci yarısında Ermənistanın dövlət borcu 12 milyard 157 milyon dollar təşkil edib. Hökumətin daxili borcu (50,7 faiz) isə ilk dəfə olaraq xarici borcunu (49,3 faiz) ötüb. Aramyanın fikrincə, dövlət borcunun ədədi ifadəsi aldadıcı ola bilər. Çox şey borcun Ümumi Daxili Məhsula və onun büdcə gəlirlərinə nisbətindən asılıdır: "Bu göstəricilərə əsasən, təhlükəli xətti keçdiyimizi və ya ciddi təhlükənin olduğunu deyə bilmərik, lakin bütün bunların altında daha bir mühüm komponent var – iqtisadi artım, iqtisadiyyatın həcmi, iqtisadiyyatın strukturu və sabitliyi".**



Onun sözlərinə görə, təhlükə 12 milyard dollar rəqəmində deyil, iqtisadiyyatın strukturundadır. V.Aramyan xatırladıb ki, son illərdə xarici borcun dollar ekvivalentində azalması dramın möhkəmlənməsi ilə bağlıdır. Bir dolların məzənnəsi 480-dən 380 drama düşüb. Lakin Ermənistan iqtisadiyyatının strukturu və potensialı uzunmüddətli perspektivdə bir dollar üçün 380 dram məzənnəsini təmin edə bilməyəcək. Çünki milli valyutanın bahalaşması ölkədə istehsal imkanlarının artması ilə deyil, xarici maliyyə axınlarının həcminin artması ilə bağlıdır. Amma müxtəlif amillərin təsiri altında vəziyyət dəyişə bilər. Hər halda bu yaxşılığa doğru olmayacaq. "Sənaye və kənd təsərrüfatının inkişafı ilə bağlı vəziyyətə diqqət yetirin. Sənaye istehsalında 22 faiz artım tamamilə uydurmadır. Ora investisiyalar və bank maliyyəsi daxil deyil. Bu rəqəm sadəcə olaraq qızılın təkrar ixracı ilə bağlıdır. Ermənistan faktiki olaraq Rusiya daşları və qızıllarının, xüsusən Dubay və Honq Konqa tədarükü üçün tranzit kanalına çevrilib. Məhz BƏƏ və Çinə keçən ildən etibarən Ermənistandan ixracın həcmində anormal artım müşahidə olunur. Belə görünür ki, Rusiya qızıl və qiymətli daşların ixracına tamamilə qadağa qoyulmasına baxmayaraq, bu, onların Ermənistan vasitəsilə təkrar ixracının logistikasına mane olmur. Məsələ ondadır ki, Ermənistanın ixracı ilə bərabər idxalının böyüməsi də milli iqtisadiyyatın tələbatına əsaslanmır. Avropa, Asiya, Yaxın Şərq və digər region ölkələri ABŞ və Aİ-nin Rusiyaya qarşı sanksiyalarından ehtiyat edərək öz mallarını birbaşa deyil, məhz Ermənistan üzərindən çatdırır. Ölkədəki iqtisadi artım da bununla bağlıdır", -deyə Ermənistanın keçmiş maliyyə naziri vurğulayıb.

V.Aramyan qeyd edib ki, siyasi vəziyyətlə bağlı ixracın strukturu da dəyişə bilər. Daha sonra o deyib ki, faktiki olaraq, ÜDM-də ixracın payı azalır və iqtisadi artım xidmətlər və əsaslı tikinti hesabına dəstəklənir. Üstəlik, bu, gələcəkdə ÜDM yaratmayacaq mənzillərin tikintisidir.

Beləliklə, ekspertin fikrincə, dövlət borcunun hazırkı həcmi xarici şəraitin necə inkişaf etməsindən asılı olacaq: "Rusiyadan çıxarılan pulun əhəmiyyətli hissəsi Ermənistanda məskunlaşıb. Bu vəsaitlər erməni kanalları vasitəsilə Rusiya ilə BƏƏ arasında almaz və qızıl alveri zamanı istifadə olunur. Xarici ölkələrdən də maliyyə axınları var. Əgər bu maliyyə axınları birdən-birə dayanarsa, o zaman iqtisadi tənəzzül baş verəcək. Bu da öz növbəsində milli valyutanın ucuzlaşmasına və borc/ÜDM nisbətinin, məsələn, 10 faiz dəyişməsinə səbəb ola bilər. Hər şey zərbənin dərinliyi və xarakterindən asılıdır".

Keçmiş nazir maliyyə köçürmələrinin tədricən azaldılması variantını istisna etmir: "İstənilən halda, bizim iqtisadi strukturun altında bir bomba basdırılıb və biz bu bombanı 2022-ci ildən başlayaraq artırdıq. Bu ənənə davam edir. Nə qədər dərinə getsək, bu bomba bir o qədər təhlükəlidir".

Ermənistanın keçmiş kənd təsərrüfatı naziri Artur Xaçatryan da " Sputnik Armenia"ya müsahibəsində ölkə iqtisadiyyatınına toxunub. Qeyd edib ki, Ermənistanın dövlət borcu iqtisadi artıma təsir edən müsbət amillərin azalması fonunda artıb. Eyni zamanda, o əlavə edib ki, əgər əvvəllər Ermənistan aşağı faizlə uzunmüddətli kreditlər alırdısa, bu gün bunun əksinədir: indiki hakimiyyət yüksək faizlə qısamüddətli kreditlər alır: "Ermənistan Statistika Komitəsi ilin birinci yarısında ölkənin dövlət borcunun (Mərkəzi Bankın borcu da daxil olmaqla) 12 milyard 157 milyon dollar təşkil etdiyi barədə məlumat yayıb. Onun strukturunda neqativ faktorlar yaranıb. Əgər uzun və ucuz kreditlərimiz var idisə, indi qısamüddətli və bahalı kreditlər var. Bu il təkcə dövlət borcuna xidmət üçün 125 milyard dram (310 milyon dollardan çox) vəsait xərclənib".

O vurğulayıb ki, əgər vaxtilə kreditlər dəqiq layihələr üçün, məsələn, kənd təsərrüfatının inkişafı, Vedidə su anbarının tikintisi və ya Qeqarkunik-Kotayk sanitar poliqonunun tikintisi üçün götürülürdüsə, indi hakimiyyət büdcəni dəstəkləmək üçün kreditlər götürür. Bu gün Ermənistan hökuməti izlənilməsi çox çətin olan büdcə krediti yolu ilə gedir".

Onun sözlərinə görə, səlahiyyətli orqanlar aldıqları kreditlərin borc/ÜDM nisbəti baxımından idarə olunan səviyyədə olduğunu deyirlər: "Lakin nəzərə almaq lazımdır ki, Ermənistanın ÜDM-in artımı xarici amillərlə bağlıdır. Yəni, məsələn, Rusiyadan qızıl Ermənistana gəlir, o da öz növbəsində onu BƏƏ-yə, Əmirliklər isə Honq Konqa ixrac edir. 2021-ci ildə Ermənistanın BƏƏ ilə ticarət dövriyyəsi 70 milyon dollar olub, 2023-cü ildə isə 2,2 milyard dollara yüksəlib, yəni Ermənistan tranzit ölkədir.

Siyasətçi qeyd edib ki, hakimiyyət diqqəti yayındırmaq üçün Ermənistanda zərgərlik məmulatlarının istehsalının 26,4 dəfə artdığını bildirir. Lakin o, əmindir ki, heç bir ölkədə hasilatın bir ildə on dəfə artması baş vermir. Bu birbaşa Rusiya qiymətli daşları və qızılı ilə bağlıdır. O deyib: "Eyni vəziyyət maliyyə köçürmələrinə də aiddir. Rusiya banklarının SWIFT-lə əlaqəsi kəsildiyi üçün pul Ermənistana başqa sistemlər vasitəsilə köçürülür, daha sonra oradan da başqa ölkələrə istiqamətləndirilir. Cari ildə əvvəlki illə müqayisədə köçürmələr az olub və müsbət saldo – pulun daxilolma və çıxışı arasındakı fərq 50 faiz azalıb. Yəni iqtisadi artıma təsir edən müsbət amillər azalır".

Ermənistan Maliyyə Nazirliyinin hesabatında göstərilir ki, ölkənin borcu dramı ilə istiqrazlar 49,2 faiz, xarici kreditlər 37,2 faiz, avrobondlar 13,4 faiz təşkil edib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Daha 18 ailə doğma yurda qayıdıb



**Dünən növbəti köç karvanı Laçına çatıb. Bu dəfə 60 laçınlının yurd həsrəti bitib.**

Bununla da Laçın şəhərində 552 ailə, yəni 2031 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

*XQ*

BEYNƏLXALQ HƏYAT




# Nüvə dövlətləri tərksilah olunmaq istəmir

**Beş rəsmi nüvə dövləti dünya ictimaiyyətinə nüvə tərksilahında irəliləyişin olmadığını bildirib. Onların nümayəndə heyətləri Cenevrədə keçirilən Nüvə Silahlarının Yayılmaması Müqaviləsi (NSYM) üzrə İcmal Konfransının hazırlıq komitəsinin iclasında müvafiq bəyanatlarla çıxış ediblər. Bəyanatlardan belə nəticəyə gəlmək olur ki, dünya nüvə müharibəsi təhlükəsi ilə hələ qeyri-müəyyən müddət üz-üzə qalacaq.**

Cenevrədə NSYM-nin İcmal Konfransına hazırlıq komitəsinin ikinci sessiyası keçirilir. Belə tədbirlər zamanı bu əsas beynəlxalq təhlükəsizlik sazişində iştirak edən 190 ölkənin nümayəndə heyətləri onun tələblərinin yerinə yetirilməsi barədə hesabat verirlər. NSYM-nin maddələrindən biri müqavilə tərəflərini "yaxın gələcəkdə nüvə silahlanma yarışına son qoymaq və nüvə tərksilahı üçün təsirli tədbirlər haqqında yaxşı niyyətlə danışıqlar aparmağa" məcbur edir. Bu müddəa formal olaraq bütün dövlətlərə şamil edilir, əslində, ilk növbədə, təbii ki, nüvə dövlətlərinə aiddir. Lakin Cenevrədə səsləndirilən bəyanatlar bir daha göstərdi ki, nüvə ölkələri tərksilah məsələsində güzəştə getmək istəmir.

Bu iddialara cavab olaraq Rusiya Federasiyası nümayəndə heyəti rəhbərinin müavini, Xarici İşlər Nazirliyinin silahların yayılmaması və nəzarət departamentinin direktor müavini Mixail Kondratenkov vurğulayıb ki, tərksilah təşəbbüsləri müasir hərbi-siyasi və strateji kontekstlə əlaqələndirilmir. Rusiyalı diplomatın fikrincə, nəticədə diqqət mərkəzi məntiqi olaraq mütləq prioritet olmalı olan vəzifələrdən əhəmiyyətli dərəcədə uzaqlaşır. Bu tendensiya NSYM sahəsində də özünü göstərir. Rusiya tərəfinin fikrincə, beynəlxalq birliyin bütün iştirakçıları, istər nüvə, istərsə də qeyri-nüvə, bu cür səylərə töhfə verməlidir: "Bizim alovlanan münaqişələri söndürmək üçün təcili addımlara, eləcə də yeni qarşıdurma ocaqlarının alovlanmasının qarşısını almaq üçün sistemli tədbirlərə ehtiyacımız var.

Eyni zamanda, bərabərlik, təhlükəsizliyin bölünməzliyi və tərəflərin fundamental maraqlarına qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq əsas ziddiyyətlərin köklü səbəblərini aradan qaldırmağa xüsusi diqqət yetirilməlidir", - deyə rusiyalı diplomat vurğulayıb. Başqa sözlə, Rusiya hakimiyyəti nüvə arsenalının azaldılmasını mümkün və ya məqsədəuyğun hesab etmir, çünki buna Qərb ölkələrinin günahı ucbatından qızışmaqda davam edən gərgin beynəlxalq vəziyyət mane olur. Moskvanın fikrincə, indi hazırkı münaqişələrin, o cümlədən nüvə dövlətləri arasında yaranan əsas səbəblərin aradan qaldırılması və yalnız bundan sonra tərksilahın davam etdirilməsi üzərində işləmək lazımdır.

ABŞ Prezidentinin nüvə silahlarının yayılmaması üzrə xüsusi elçisi Adam Şeynman Cenevrədəki çıxışı zamanı həmkarlarını "nəhayət, açıq və dürüst etiraf etməyə" çağırıb ki, nüvə silahına malik olan bütün dövlətlər nüvəsizləşmə məqsədlərinə nail olmaq yolunda deyillər". A.Şeynmanın sözlərinə görə, Vaşinqton bu yaxınlarda həm Moskvaya, həm də Pekinə silahlara nəzarət və nüvə riskinin azaldılması üzrə dialoqa başlamaq üçün bir neçə dəfə təklif edib, lakin onlar bu təklifi müzakirə etməkdən qaçırlar.

Cenevrədə çıxış edən Çin Xarici İşlər Nazirliyinin Silahlara nəzarət departamentinin direktoru Sun Xiaobo, öz növbəsində, tərksilahla bağlı müzakirələr çərçivəsində "yanlış yola getməməyə" çağırıb: "Nüvə siyasətləri, arsenalları və xarici təhlükəsizlik şərtləri baxımından böyük fərqlərə malik olan ölkələrdən eyni nüvə tərksilahı üzrə öhdəliklər götürmələrini tələb etmək ədalətsiz və əsassızdır və şübhəsiz ki, beynəlxalq nüvə tərksilahı prosesinə heç bir yerdə rəhbərlik etməyəcək". Çin diplomatının çıxışından belə nəticəyə gəlmək olur ki, ən böyük nüvə potensialına malik olan Rusiya və ABŞ, ilk növbədə, tərksilah olunmalıdır. Əgər onlar öz nüvə arsenallarını yoxlanıla bilən, geri dönməz və hüquqi cəhətdən məcburi şəkildə azalda bilsələr, digər nüvə gücləri də tərksilah prosesinə qoşula bilər. SIPRI-ın hesablamalarına görə, Çinin nüvə başlıqlarının sayı 500-ə çatır, lakin Pekinin nüvə imkanlarını digər ölkələrlə müqayisədə daha sürətlə genişləndirdiyi qeyd edilir.

Ekspertlərin fikrincə, 290 nüvə başlığına sahib olan Fransa nümayəndə heyəti tərksilah mövzusuna səthi toxunub. Fransa nümayəndə heyətinin rəhbəri Kamil Petitin sözlərinə görə, onun ölkəsi "hamı üçün bölünməz təhlükəsizlik prinsipinə riayət etməklə nüvə silahlarından azad dünya üçün şərait yaratmağa tam sadiqdir". Eyni zamanda, o qeyd edib ki, tərksilahdan danışarkən hazırkı pisləşən strateji konteksti nəzərə almaq lazımdır. Əvvəllər Fransa rəsmiləri bildiriblər ki, Rusiya və ABŞ arsenallarını onun səviyyəsinə endirdiyi zaman Paris tərksilah prosesinə qoşulacaq.

Britaniya Xarici İşlər Nazirliyinin Müdafiə və beynəlxalq təhlükəsizlik üzrə direktoru Stiven Lilli çıxışında vurğulayıb ki, Londonun prioriteti ölkənin təhlükəsizliyini təmin etməkdir. "Baş nazirim (Keir Starmer – XQ) açıq şəkildə bildirdi ki, nə qədər ki, başqalarının nüvə silahı var, Böyük Britaniya da öz nüvə çəkindirici gücvəsini qoruyub saxlayacaq", – deyə o xatırladıb. Eyni zamanda, diplomat qeyd edib ki, Londonda minimum nüvə silahı var və bu arsenal Böyük Britaniya və onun müttəfiqləri üçün "həyati təminat" rolunu oynayır. SIPRI-nin məlumatına görə, söhbət 225 döyüş başlığından gedir, lakin Britaniya hakimiyyəti bu rəqəmi 260-a çatdırmaq hüququnu özündə saxlayır.

Bir sözlə, Cenevrə toplantısı göstərir ki, nüvə dövlətləri tərksilah məsələsində sərt mövqe sərgiləyirlər. Bu isə o deməkdir ki, dünyada nüvə müharibəsi təhlükəsi hələ qeyri-müəyyən müddət davam edəcək.

***S.ELAY***
***XQ***

# Bu gün İranda İsmayıl Haniyə ilə vida mərasimi keçiriləcək

**Məlum olduğu kimi, bu il iyulun 31-nə keçən gecə HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyə İranın paytaxtı Tehranda öldürülüb. İranın "Mehr" agentliyi bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) bəyanatına istinadla məlumat yayıb.**

"Fələstinin HƏMAS müqavimət hərəkatının siyasi bürosunun rəhbəri İsmayıl Haniyə Tehranda şəhid olub", – deyə məlumatda bildirilir.

Agentliyin məlumatına görə, hücum zamanı Haniyənin mühafizəçilərindən biri də həlak olub. Hadisənin hansı şəraitdə baş verdiyi araşdırılır.

Haniyənin yerli vaxtla təxminən 02.00-da qaldığı yerə raket zərbəsi endirilməsi nəticəsində öldüyü bildirilir. HƏMAS rəsmi bəyanatında Siyasi Büro rəhbərinin ölümünü təsdiqləyərək insidentdə İsraili günahlandırıb. Hücum Haniyənin İranın yeni Prezidenti Məsud Pezeşkianın andiçmə mərasimində iştirakından sonra baş verib.

HƏMAS hərəkatının mətbuata açıqlamasında bildirilir ki, İsmayıl Haniyə İranda keçiriləcək vida mərasimindən sonra cümə günü Qətərdə dəfn ediləcək.

Məlumata görə, İsmayıl Haniyə ilə rəsmi vida mərasimi bu gün Tehranda keçiriləcək. Cənazə bundan sonra Qətərin paytaxtı Dohaya aparılacaq və avqustun 2-də, cümə günü Lusail şəhərində dəfn olunacaq.

Dohada keçiriləcək vida mərasimində ərəb və islam dünyası liderlərinin, həmçinin Fələstin fraksiyası üzvlərinin iştirak edəcəkləri gözlənilir.

***M.HACIXANLI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 161 (30565) 1 avqust 2024-cü il, cümə axşamı

# "Paris – 2024": Güləşçilərimiz qələbəyə kökləniblər

## *Alfonso Dominqes:* Daha da irəli getmək lazımdır

**Bu gün medal ümidlərimizdən biri olan boksçumuz Alfonso Dominqes (92 kq) ¼ final qarşılaşmasına çıxacaq.**






Boksçumuz yaxşı formada olduğunu elə ilk qarşılaşmada nümayiş etdirib. O, 1/8 final mərhələsində ikiqat Olimpiya çempionu Xulio Sesar Kruz (Kuba) kimi çətin rəqibi mübarizədən kənarlaşdırıb. Rinq ustası müsahibələrinin birində Paris Olimpiadasında favoritlər arasında məhz Xulio Sezar La Kruzun adını çəkmiş, eyni zamanda, ispaniyalı və italiyalı boksçuların güclü olduqlarını bildirmişdi. Artıq ilk görüşü müvəffəqiyyətlə başa vuraraq növbəti mərhələyə vəsiqə qazanan rinq ustasının uğurla irəliləməsi üçün yetərincə potensialı var. Boksçumuz yarışda çıxışını şərh edərkən belə deyib:

– Bu son deyil, qarşıda döyüşlər var. Daha da irəli getmək lazımdır.

Tokio Olimpiadasında bürünc medal qazanan Alfonso Dominqes Olimpiya tsiklində böyük nailiyyətlər əldə edib. O, 2021-ci ildə karyerasında ilk dəfə dünya çempionu titulunu qazanıb. Ötən il Daşkənddə keçirilən dünya çempionatında gümüş medala sahib olub. Bugünkü döyüşdə onun rəqibi Aybek Oralbay (Qazaxıstan) olacaq.

İnanırıq ki, boksçumuz Olimpiya zirvəsinə yüksələcək!

## Hazırlıq plan üzrə gedir

**Paris Olimpiadasında "ağır artilleriya"mızın işə düşməsini – güləş təmsilçilərimizin çıxışını səbirsizliklə gözləyirik. Sərbəst və yunan-Roma güləş komandalarımız artıq sonuncu hazırlıq mərhələsini keçirlər. İndiyədək Azərbaycanın güləş komandası olimpiadalarda 4-ü qızıl, 8-i gümüş, 13-ü bürünc medal olmaqla 25 mükafat qazanıb.**











**Yunan-Roma güləşi üzrə Azərbaycan millisinin baş məşqçisi Aleksandr Tarakanov yığmanın "Paris-2024" Yay Olimpiya Oyunlarına hazırlıq prosesi barədə federasiyanın mətbuat xidmətinə açıqlamasında məşqlərin plan üzrə getdiyini deyib. Mütəxəssis bildirib ki, sparrinq məqsədilə İran, Moldova və Rusiyadan güləşçilər dəvət edilib:**

– Güləşçilərimiz məşq edir, hazırlaşırlar. Hər kəs yaxşı nəticəyə köklənib.

**Azərbaycanın sərbəst güləş üzrə millisinin baş məşqçisi Xetaq Qazyumov Parisdəki Yay Olimpiya Oyunları öncəsi son hazırlıq prosesi ilə bağlı danışarkən hazırlıqların plan üzrə getdiyini bildirib:**

– Hazırlıq prosesi plan üzrə gedir. Olimpiada üçün son təlim-məşq toplanışıdır. Güləşçilərimiz qələbəyə köklənib. Ümid edirəm ki, Olimpiya oyunlarında ən yaxşı çıxışlarını nümayiş etdirəcəklər. İnanıram ki, toplanışı zədəsiz başa vuracağıq. Sonra Olimpiya bayramı başlayacaq.

Qeyd edək ki, "Paris-2024"də güləş yarışları avqustun 5-də start götürəcək, 11-dək davam edəcək.

Azərbaycanın sərbəst güləş yığmasının heyətində Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Turan Bayramov (74 kq), Osman Nurməhəmmədov (86 kq), Maqomedxan Maqomedov (97 kq), Georgi Meşvildişvili (125 kq) yer alıb.

Yunan-Roma güləşi üzrə isə Murad Məmmədov (60 kq), Həsrət Cəfərov (67 kq), Sənan Süleymanov (77 kq), Rafiq Hüseynov (87 kq) və Sabah Şəriəti (130 kq) medallar uğrunda yarışacaqlar. Qadın güləşində ölkəmizi Mariya Stadnik (50 kq) təmsil edəcək.

## Cüdoçumuz çıxışını dayandırıb



**Azərbaycan cüdoçusu Elcan Hacıyev "Paris-2024" Yay Olimpiya Oyunlarında çıxışını dayandırıb.**

90 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız 1/8 final görüşündə fransalı Maksim Qael Ambuya ipponla məğlub olub. Cüdoçumuz görüş zamanı çiynindən ciddi zədə alıb və xəstəxanaya yerləşdirilib.

Qeyd edək ki, Paris Olimpiadasında Azərbaycan cüdoçularından hələlik yalnız Hidayət Heydərov (73 kiloqram) medal qazanıb. İdmançı Olimpiya çempionu olub.

## Dünya rekordçusu Olimpiya kəndində yaşamaqdan imtina edib



**Atletika dünya rekordçusu, isveçli Armand Duplantis Olimpiya kəndində yaşamaqdan imtina edib.**

Bu barədə "Expressen" nəşri məlumat yayıb. İsveç millisinin kapitanı Kaysa Berqkvist idmançının daha yaxşı şəraitli mənzil tapdığını bildirib.

Qeyd edək ki, idmançıların Olimpiya kəndinin şəraitindən narazılıqları səngimək bilmir. Atletlər kağız və ya plastik materialdan hazırlanan karton çarpayıları tənqid obyektinə çeviriblər. Otaqlarda televizorların və kondisionerlərin olmaması da idmançıları narazı salıb.

## Medal qazanacağıma ümidli idim



**"Paris-2024" Yay Olimpiya Oyunlarında çıxışını başa vuran kamandan oxatma üzrə Azərbaycan millisinin üzvü Yaylagül Ramazanova mətbuata açıqlama verib. İdmançı Vətənə medalsız qayıdacağından təəssüfləndiyini bildirib:**

–Gündə iki dəfə məşq edirdim. Turnirə yaxşı hazırlaşmışdım. Təəssüf ki, medalsız qayıdacağam. Buna baxmayaq, mənim üçün yaxşı təcrübə oldu. Növbəti Olimpiadada mükafatçılar sırasında olacağıma ümid edirəm. Yarışda medal qazanacağıma çox ümidli idim.

Qeyd edək ki, Yaylagül Ramazanova 1/32 finalda çinli An Qixuana qalib gəlməsinə baxmayaraq, növbəti raundda almaniyalı Mişel Kroppenə məğlub olaraq turnirlə vidalaşıb.

*Səhifəni hazırladı:*
***Leyla QURBANOVA***
***XQ***

## Pevtsov olimpiada ilə vidalaşıb




**Azərbaycan triatlonçusu Rostislav Pevtsov Paris Olimpiadasında mübarizə aparıb.**

İdmançı finiş xəttinə 43-cü çatıb. Ümumi məsafəni 1 saat 50 dəqiqə 36 saniyəyə qət edən R.Pevtsov turnirlə vidalaşıb.

Xatırladaq ki, iyulun 30-da keçirilməli olan triatlon yarışı Sena çayında suyun keyfiyyətinin aşağı olması səbəbindən təxirə salınmışdı.

## Pakistanda son sutkada 25 nəfər yağış və daşqınların qurbanı olub

**Son günlər Pakistanın Xayber-Paxtunxva əyalətində yağan güclü musson yağışları müxtəlif fəsadlar törədib, çox sayda ev zərər görüb. Pakistan mətbuatının yaydığı məlumata görə, təbii fəlakət zamanı Xayber-Paxtunxva əyalətində 22 nəfər həyatını itirib, çoxlu yaralının olduğu bildirilir.**



Ölkənin Sinqh əyalətində isə yağış və daşqınlar nəticəsində 3 nəfər həlak olub. Əhali təbii fəlakət zonasından təhlükəsiz ərazilərə köçürülür, onlar ərzaq və dərmanlarla təchiz edilir.

Əyalətin Kaghan bölgəsində şiddətli yağışlar bir körpünü dağıdıb və minlərlə turistlə əlaqə kəsilib.

Pakistanın Baş naziri Şahbaz Şərif Fövqəladə Hallar Agentliyinə təcili tədbirlər görülməsi ilə bağlı göstəriş verib.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**İslamabad**

## Yenə də Aranda yağmursuz və küləkli, dağlarda yağıntılı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 1-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**

Əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şəhərətrafı ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26° , gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 753 mm civə sütunu, nisbi rütubət gecə 70-80 , gündüz 50-55 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 30-35°, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 3210 |
| SİFARİŞ | 1685 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00